Təhsildə Keyfiyyət Təminatı Agentliyi

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala filialının**

**institusional akkreditasiya qiymətləndirilməsi üzrə**

**Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2023-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Məmmədov Fariz Orucalı oğlu - Azərbaycan Texniki Universiteti, Beynəlxalq əlaqələr üzrə prorektor, i.ü.f.d.;

**Üzvlər:**

2. İsmayılov İsmayıl Akif oğlu - Gəncə Dövlət Universiteti, Keyfiyyət təminatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru;
3. Qəniyev Xanlar İlqar oğlu – Azərbaycan Memarlıq və İnşaat Universiteti, Təcrübə və karyera şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru;
4. Hacıyev Ramil Əbdürəhim oğlu - Bakı Mühəndislik Universiteti, Tədris hissəsinin müdiri;
5. İmamquliyeva Günel Səlim qızı - Azərbaycan Memarlıq və İnşaat Universiteti, Sənayenin təşkili və idarə edilməsi kafedrasının müəllimi, Tələbə Elmi Cəmiyyətinin sədri, Sahə iqtisadiyyatı ixtisası üzrə doktorant.

## MÜNDƏRİCAT


**Giriş** ........ 4

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar** ........ 4

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri** ........ 5

**Qiymətləndirmənin icmalı** ........ 5

**1. STRATEJİ İNKİŞAF** ........ 5

**2. KEYFİYYƏT TƏMİNATI** ........ 7

**3. TƏLİM VƏ TƏDRİS** ........ 9

**4. ELMİ TƏDQİQAT** ........ 32

**5. İDARƏETMƏ SİSTEMİ** ........ 38

**6. İNFRASTRUKTUR** ........ 48

**7. BEYNƏLMİLƏLLƏŞMƏ** ........ 53

**Komissiyanın istiqamətlər üzrə təhlili** ........ 57

**Giriş**

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar**

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | İlk akkreditasiya |
| Təhsil müəssisəsinin rəhbəri | Rzayev Orucəli Hüseynqulu |
| Fakültələrin sayı | 1 |
| Kafedraların sayı | 1 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 8 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | - |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | - |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı: 1381**<br>Bakalavriat: 1381<br>Magistratura: -<br>Doktorantura: -<br>Elmlər doktorluğu proqramı üzrə: - |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 33 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 7 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | unec.zf@unec.edu.az / +994242252157 |
| Müəssisənin hüquqi ünvanı | Zaqatala şəhəri, Əhməd Rəcəbli küçəsi 4 |
| Müəssisənin faktiki ünvanı | Zaqatala şəhəri, Əhməd Rəcəbli küçəsi 4 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri

## Qiymətləndirmənin icmalı

Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının (filial) institusional akkreditasiya qiymətləndirilməsi Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) 2022-ci il 14 noyabr tarixli F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq aparılmışdır. Qiymətləndirmənin məqsədi təhsil müəssisəsinin davamlı olaraq təkmilləşdirilməsi və daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək, o cümlədən ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır.

Filialın institusional akkreditasiyası üzrə Akkreditasiya Komissiyası TKTA tərəfindən təsdiq edilmiş ekspert seçimi proseduruna uyğun olaraq seçilmişdir. 2022-ci il 19 oktyabr tarixindən etibarən 3 ay müddətində filial tərəfindən Özünütəhlil Hesabatı hazırlanmış və 2023-cü il 22 – 26 may tarixlərində Akkreditasiya Komissiyası tərəfindən filialda sahə baxışı həyata keçirilmişdir.

Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

## 1. STRATEJİ İNKİŞAF

### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

#### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

“UNEC-100” İnkişaf Strategiyasının mövcudluğuna baxmayaraq, akkreditasiyanın əhatə etdiyi dövrdə filialın ayrıca strateji inkişaf proqramı mövcud olmamışdır. Digər tərəfdən, “UNEC-100” İnkişaf Strategiyasında filial barədə hər-hansı ayrıca müddəa qeyd olunmamış, filial tərəfindən isə “UNEC-100” İnkişaf Strategiyası əsasında tədbirlər planı hazırlanmamışdır.

Bununla yanaşı, filial direktorunun 2023-cü il 27 fevral tarixli 02t/113 nömrəli qərarı ilə UNEC Zaqatala filialının fəaliyyətinin planlaşdırılması, müvafiq məqsəd, hədəf və fəaliyyətlərin həyata keçirilməsi məqsədilə Strateji Fəaliyyət Planının (SFP) hazırlanması üçün aidiyyəti komissiya yaradılmışdır. Komissiyanın yaradılmasının Özünütəhlil Hesabatının hazırlanması dövrünə təsadüf etməsi də filialın müvafiq indikatorun tələbinə uyğun olmadığını göstərir.

#### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

#### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

#### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

**1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi**

**1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması**

**1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi**

**1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti**

**1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti**

**1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti**

**1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması**

**1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması**

**1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

**1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi**

Akkreditasiyanın əhatə etdiyi dövrdə UNEC Zaqatala filialının SİP-i olmadığından, 1.1.2 - 1.1.14-cü indikatorlar üzrə qiymətləndirmə aparmaq mümkün deyildir.

***1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi***

**1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti**

**1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti**

**1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti**

**1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti**

**1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti**

Akkreditasiyanın əhatə etdiyi dövrdə UNEC-in Zaqatala filialının SİP-i olmadığından, 1.2-ci meyarın indikatorları üzrə qiymətləndirmə aparmaq mümkün deyildir.

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1 Keyfiyyət təminatı siyasəti*

**2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı**

**2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti**

**2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi**

**2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)**

Özünütəhlil Hesabatında filialın keyfiyyət təminatı siyasətinin UNEC-in keyfiyyət siyasəti prinsiplərinə əsaslandığı qeyd olunsa da, filialın keyfiyyət təminatı siyasətini əks etdirən təsdiqlənmiş rəsmi heç bir sənədi mövcud deyildir. Bundan əlavə, keyfiyyət təminatı siyasəti sənədinin hazırlanması prosesini əks etdirən materiallar, uyğun olaraq istinad olunacaq qanunvericilik aktları, bu istiqamətdə filialın daxili əmrləri, qərarları, hesabatları və keyfiyyət təminatı siyasətinin hazırlanması üçün ayrılmış resursları özündə ehtiva edən sənədlər, eləcə də keyfiyyət təminatı siyasəti sənədinin hazırlanması məqsədi ilə təşkil edilmiş iclaslar, görüşlər, tədbirlər və (və ya) onları əks etdirən protokollar, press-relizlər, nəşrlər təqdim edilməmişdir. Sahə səfəri zamanı adıçəkilən sənədlərin olmadığı filialın Keyfiyyət təminatı və qiymətləndirmə üzrə mütəxəssisi tərəfindən də təsdiq edilmişdir. Keyfiyyət təminatı siyasətini əks etdirən sənəd olmadığı üçün 2.1-ci meyarın indikatorları üzrə qiymətləndirmə aparmaq mümkün olmamışdır.

### *2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

**2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)**

**2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması**

**2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti**

**2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması**

**2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması**

**2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

**2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

**2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

2.2.1-2.2.8-ci indikatorlar üzrə UNEC Zaqatala filialı qiymətləndirilərkən qeyd edilməlidir ki, filialda keyfiyyət təminatı sistemi (Keyfiyyət Təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.) ümumən mövcud deyildir.

Təqdirəlayiq hal kimi diqqətə çatdırılmalıdır ki, filialda keyfiyyətin təminatı və qiymətləndirmə üzrə mütəxəssis ştatı yaradılmış və bu vəzifəyə təyinat olmuşdur. Bununla belə, sözügedən keyfiyyətin təminatı və qiymətləndirmə üzrə mütəxəssis Zaqatala İqtisad Məktəbinin tərkibində fəaliyyət göstərən katibə tabe edilmiş və vəzifə səlahiyyətləri tədris prosesinin keyfiyyət təminatı ilə məhdudlaşmışdır. Onu da əlavə etmək lazımdır ki, keyfiyyət təminatı və qiymətləndirmə üzrə mütəxəssisin işini tənzimləyəcək əsasnamə, təlimat və ya fəaliyyət proqramı mövcud deyildir.

**2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti**

Keyfiyyət təminatı üzrə filialın illik Özünütəhlil Hesabatları hazırlanmamışdır.

**2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

Cari institusional akkreditasiya qiymətləndirməsi UNEC Zaqatala filialında ilk dəfədir ki, təşkil olunur. Belə ki, bundan öncə aparılmış akkreditasiya qiymətləndirməsi filialın sələfi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Zaqatala filialında olmuşdur.

**2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

UNEC-in Zaqatala filialında onun fəaliyyətinin təsir dairəsinə uyğun olaraq hesabat dövründə maraqlı tərəflərin məmnunluq səviyyəsinin öyrənilməsi ilə əlaqədar sorğular qənaətbəxş səviyyədə aparılmamışdır. Belə ki, təhsilalanların, məzunların, akademik və inzibati və tədris-köməkçi heyət arasında sorğu keçirilsə də, sorğu əmək bazarı iştirakçılarını əhatə etməmiş və ümumən sorğu nəticələrinin təhlili barədə natamam məlumatlar təqdim edilmişdir. Qeyd olunanlarla yanaşı, filial tərəfindən sorğuların keçirilməsini müsbət hal kimi qiymətləndirmək olar.

### *2.3 Keyfiyyət təminatı mədəniyyəti*

**2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması**

**2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması**

**2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər**

**2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti**

UNEC-in Zaqatala filialının rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məhsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi və inzibatı heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsi mövcud deyildir. Filialdaxili keyfiyyət təminatı sistemində UNEC-lə paralel fəaliyyət göstərilməsi qeyd edilsə də, filial rəhbərliyinin və struktur bölmələrinin keyfiyyət təminatı sisteminin bütün mərhələlərində iştirakını təsdiq edən sənədlər mövcud deyildir. Akademik və inzibati heyət ilə rəhbərlik arasında keyfiyyət təminatı üzrə fəaliyyət şifahi formada həyata keçirilir. Qeyd olunanları nəzərə alaraq, 2.3-cü meyarın indikatorları üzrə qiymətləndirmə aparmaq mümkün olmamışdır.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

**3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti**

Filialda müsahibələr zamanı tələbə qəbulu sifarişlərinin formalaşdırılmasında regionun əmək bazarının araşdırılmasının vacibliyi vurğulanmışdır. Araşdırmanın ümumi müşahidə və şifahi sorğu şəklində aparıldığı qeyd olunsa da, bununla bağlı heç bir rəsmi görüş, əməkdaşlıq olunmamış və sahə səfəri zamanı komissiyaya heç bir sənəd təqdim edilməmişdir.

Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblər müəyyən qədər nəzərə alınmışdır. Professor-müəllim heyətinin sayı və ixtisas profili, maddi-texniki baza imkanları, auditoriya fondu, tədris laboratoriya imkanları isə tam nəzərə alınmamışdır.

#### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Filialın tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi üçün əmək bazarının tələblərinin əsasən istehsalat təcrübəsi zamanı öyrənildiyi, eyni zamanda UNEC Karyera mərkəzi tərəfindən də müvafiq rəyin verildiyi sahə səfəri zamanı müəyyən olunmuşdur. Bununla belə, regionun əmək bazarının tələblərinin araşdırılması, əmək bazarının nümayəndələri ilə keçirilmiş görüşlər barədə materiallar komissiyaya təqdim olunmamışdır.

#### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Müsahibə zamanı tələbə qəbulu sifarişlərinin formalaşdırılmasında regionun əmək bazarının araşdırılmasının filial əməkdaşları tərəfindən vacibliyi vurğulanmış və əmək bazarının araşdırılmasının şifahi şəkildə aparıldığı qeyd olunmuşdur. Akkreditasiya zamanı bununla bağlı heç bir rəsmi görüş, əməkdaşlıq olmamış, komissiyaya heç bir sənəd təqdim edilməmişdir.

#### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

Digər təhsil müəssisələrindən filiala köçürülmüş, subbakalavr təhsili almış və təkrar ali təhsil üzrə qəbul olunmuş tələbələrin əvvəlki təhsildə qazandıqları kreditlərinin tanınması və nəzərə alınması UNEC-in fənlərin uyğunlaşdırılması komissiyası tərəfindən həyata keçirilir. Kreditlərin tanınması və nəzərə alınması məqsədi ilə UNEC rəhbərliyi tərəfindən təsdiq olunmuş təlimat, qaydalar və ya meyarların olmadığı müəyyən edilmişdir. Şəffaflığın təmin olunması və münaqişəli halların yaranmaması üçün komissiyanın öz fəaliyyətində tələbələrə elan olunmuş qaydalara əsaslanması əhəmiyyətlidir.

### *3.2 Təhsil proqramları*

#### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

ATM-də kadr hazırlığı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin 6-cı səviyyəsinə (bakalavr) uyğun olaraq bakalavriat

səviyyəsi üzrə “Mühasibat”, “Maliyyə”, “İqtisadiyyat”, “Menecment”, “Marketinq”, “Biznesin idarə edilməsi”, “İnformasiya texnologiyaları” və “Turizm işinin təşkili” ixtisasları üzrə əyani və qiyabi formada kadr hazırlığı aparılır. Filialda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiqlənmiş “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası”na uyğun olaraq təkrar ali təhsil proqramı üzrə kadr hazırlığı həyata keçirilir.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

Təhsil proqramları Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi “Bakalavriat Səviyyəsinin İxtisas üzrə Təhsil Proqramı”na uyğun hazırlanmışdır. Tədris UNEC-in Elmi Şurası tərəfindən təsdiq olunmuş tədris planları əsasında həyata keçirilir. Filialda tədris planlarında qeyd olunan seçmə fənlərin müəyyənləşdirilməsində, dəyişdirilməsində və nəticələrin qiymətləndirilməsində işəgötürənlərin iştirakı məhduddur. Təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğunun ölçülməsi istiqamətində təhlillər aparılmamışdır.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

Filialda 2016-cı ildən 2020-ci ilə qədər əvvəlki təhsil proqramlarına uyğun hazırlanmış tədris planlarına müvafiq tədris təşkil olunmuşdur. 2020-2021-ci tədris ilindən etibarən Təhsil Nazirliyinin 2020-ci il 9 iyul tarixli F-343 nömrəli qərarı ilə təsdiq olunmuş ixtisasların təhsil proqramlarına uyğun hazırlanmış və UNEC tərəfindən təsdiq edilmiş tədris planlarına əsasən tədris təşkil olunur. İxtisasların tədris planları, ixtisaslar üzrə təhsil proqramlarının məzmununa, strukturuna və qiymətləndirmə qaydalarına uyğun hazırlanmışdır.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

Təhsil proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin 6-cı səviyyəsinə uyğun hazırlanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr 163 nömrəli qərarı ilə təsdiqlənmiş “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası”nın tələblərinə uyğun olaraq təkrar ali təhsil proqramı üzrə kadr hazırlığı həyata keçirilir.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Təhsil proqramlarında ayrı-ayrı ixtisaslar üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğun olaraq sillabuslar hazırlanır və sillabuslar mütəmadi olaraq yenilənərək müəllimlər tərəfindən EDUMAN sisteminə yüklənir.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

Filialda tədrisin təşkili UNEC tərəfindən ixtisaslar üzrə hazırlanmış tədris planlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun həyata keçirilir. Tədris planları ixtisasların təhsil proqramlarının tələbləri nəzərə alınmaqla kredit sisteminin tələblərinə uyğun hazırlanmışdır. İxtisasların tədris planlarında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikləri mövcuddur. Tədris planlarında semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi əsasən təmin edilmişdir.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

İxtisaslar üzrə tədris edilən fənlər təhsil proqramlarının tələblərinə uyğun hazırlanmış tədris planlarında öz əksini tapır. Fənlərin təlim nəticələri təhsil proqramına və hər bir fənnin təlim nəticələri bəndinə uyğun hazırlanmışdır. Fənlərin sillabusları mövcuddur. Çox az fənnin fənn proqramı mövcuddur. Mövcud fənn proqramlarının əksəriyyəti başqa ATM-in əməkdaşları tərəfindən tərtib olunub.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün kredit sisteminə uyğunluğu və həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu təmin edilmişdir. Tədris planları tələbələrin həftəlik dərs saatları 22,5 saat olmaqla mövcud təhsil proqramlarının tələblərinə uyğun hazırlanmışdır.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Təhsil Proqramlarının əsasında hazırlanmış Tədris Planlarının təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlılığının təmin edilməsi məqsədilə UNEC-in (unec.edu.az) rəsmi saytında yerləşdirilmişdir.

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Təhsil proqramları UNEC-in işçi qrupu tərəfindən 2019-cu ildə hazırlanmış və 2020-ci ildə Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur. Təhsil proqramları hazırlanarkən əmək bazarının nümayəndələrinin təklif və tövsiyələri nəzərə alınmışdır. Sonrakı illərədə tədris planlarının hazırlanmasında, seçmə fənlərin müəyyənləşdirilməsində və nəticələrin qiymətləndirilməsində işəgötürənlərin iştirakı məhduddur.

### *3.3 Tədrisin təşkili*

#### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

Tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında qanuna uyğun tərtib olunmuşdur. Tədris proqramında 1 kredit 30 saat hesab edilməklə hər semestr ərzində 30 kredit tələbi gözlənilmişdir. Təhsilalanların universiteti bitirmələri üçün 240 kredit toplamaları şərti hazırlanmış tədris proqramlarında öz əksini tapmışdır.

#### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

Bakalavriat səviyyəsi üzrə ixtisasın tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə (prerekvizitliyi və korekvizitliyi nəzərə alınmaqla) bölgüsünü əks etdirən tədris qrafikləri mövcuddur.

#### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Tədris planları bakalavriat səviyyəsində 240 (4 il) kreditdən ibarətdir. Tədris planlarında normativlərə uyğun olaraq ümumi fənlər, ixtisas fənləri və ATM tərəfindən müəyyən edilmiş fənlərin bölgüsü aparılmışdır. Ümumi fənlər bloku məcburi (24 kredit) və seçmə (6 kredit) fənlərdən ibarət olmaqla ümumilikdə 30 kredit təşkil edir. Eyni zamanda, ixtisas fənlərinə ümumilikdə 120 kredit, ATM tərəfindən müəyyən edilən fənlərə 60 kredit, təcrübəyə və bununla bağlı fənlərə isə 30 kredit müəyyən edilmişdir.

#### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Tədris planları Elm və Təhsil Nazirliyinin 2020-ci il 9 iyul tarixli F-343 nömrəli qərarı ilə təsdiq olunmuş təhsil proqramlarının tələbləri gözlənilməklə hazırlanmışdır.

#### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Təhsil proqramlarında hər bir fənn üzrə gözlənilən təlim nəticələri məzunların əldə edə biləcəkləri bilik, bacarıq və bunun əsasında müəyyən kompetensiyalara yiyələnmələrinə hədəflənmişdir. Fənlərin təlim nəticələri ixtisasın təlim nəticələri ilə əsasən əlaqələndirilmişdir. Uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi və qiymətləndirilməsi monitorinqlər vasitəsi ilə həyata keçirilir. Müəyyən qədər nəzarət mexanizmi mövcuddur.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Fənn sillabuslarında təlim nəticələri və qiymətləndirmə meyarları qeyd olunmuşdur. Fənlərin sillabusları vaxtaşırı yenilənir. Keçirilən monitorinqlər vasitəsilə sözügedən məsələyə müəyyən qədər nəzarət edilir.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

Təhsil proqramlarının tələblərinə əsasən təhsilalanın tədris yükü 5 günlük iş rejimi ilə auditoriya və auditoriyadan kənar saatların həcmi ümumi olaraq 45 saat təşkil edir. Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox deyil. Tədris planları tələbələrin həftəlik dərs saatları 22,5 saat olmaqla mövcud təhsil proqramlarının tələblərinə uyğun hazırlanmışdır.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Tələbələrin fərdi tədris planları mövcuddur. Fərdi tədris planlarının hazırlanmasında tələbələrin iştirakı qismən təmin edilmişdir. Belə ki, fərdi tədris planları əksər hallarda tələbələrin razılığı ilə kafedranın əməkdaşları və tyutorlar tərəfindən hazırlanır.

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

İxtisasların tədris planlarına uyğun hazırlanmış işçi tədris planları mövcuddur. Lakin planlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” ilə təsdiqlənmiş nümunəyə tam uyğun tərtib olunmamışdır. Təsdiq tarixi və hansı tədris ilinə aid olması qeyd olunmamışdır. Eyni zamanda, planlar tələbələrin fərdi tədris planlarına əsasən hazırlanmamışdır. Belə ki, fənni

seçən tələbə sayı və tələbələrin hansı seçmə fənni seçdikləri (müvafiq semestrdə hansı seçmə fənnin tədris olunacağı) planda öz əksini tapmır.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

Filialda müəllimlərin tədris etdiyi fənlər, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən illik işçi tədris planları mövcuddur. Dərs yükünün bölgüsündə aktiv yükün passiv yükə nisbəti nəzərə alınmışdır. Planların forması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" ilə təsdiqlənmiş nümunəyə tam uyğun gəlmir. Tədris başladıqdan sonra müəyyən üzrlü səbəblərə görə bəzi müəllimlərin yükü başqa müəllimə əmrlə verilmişdir. Həmin yüklərin yerdəyişməsi illik işçi tədris planlarında qeyd olunmamışdır. Saathesabı qaydada əmrlə verilmiş dərs yükləri illik işçi tədris planlarında qeyd olunmamışdır.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

Mövcud tədris planlarında hər bir fənnin tədrisində mühazirə, məşğələ və laboratoriya dərsləri nəzərdə tutulmuşdur. Mühazirələr birləşdirilmiş qruplarda, məşğələlər isə birləşdirilmiş qrupun daxilində olan hər bir qrupa ayrı-ayrılıqda təşkil edilir. Labaratoriya dərsləri sadəcə "İnformasiya texnologiyaları" ixtisasında keçirilir. Filialda laboratoriya dərsləri üçün ixtisaslaşmış laboratoriya və kifayət qədər əyani vəsait mövcud deyildir. Dərslər auditoriyada müəllim kürsüsündə quraşdırılmış kompüter və proyektor vasitəsi ilə keçirilir.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

Filialda 2 nəfər əyani təhsil forması üzrə, 1 nəfər isə qiyabi təhsil forması üzrə akademik məsləhətçi (tyutor) fəaliyyət göstərir. Akademik məsləhətçilər iş təcrübələrinin az olmasına və ixtisas profillərinin tələbələrin ixtisasına uyğun olmamasına baxmayaraq kifayət qədər kredit sistemi barədə məlumatlıdırlar. Yeni qəbul olunan tələbələrlə görüşlərin keçirilməsi, kredit sistemi ilə tədrisin təşkili, biliyin qiymətləndirilməsi, elektron universitet haqqında tələbələrə şifahi və EDUMAN sistemində yeni yaradılmış məsləhət-müzakirə paneli vasitəsi ilə məsləhətlərin verilməsi işini həyata keçirirlər.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

UNEC Zaqatala filialında 2019-2020-ci tədris ilinə qədər əvvəlki tədris proqramında imtahana qədər qazanılan 50 balın 10 balı sərbəst işə verilirdi. 2019-2020-ci ildən etibarən sərbəst işlərin qiymətləndirilməsi əvəzinə digər daha səmərəli qiymətləndirmə mexanizmi tətbiq edilir.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

Filialda tədris planına görə istehsalat təcrübəsi əyani təhsilalma formasında təhsilin IV, qiyabi təhsilalma formasında isə təhsilin V ilinin yaz semestrində 21 kredit (21x30=630 akademik saat) olmaqla regionda və ümumi respublikada fəaliyyət göstərən müəssisələrdə həyata keçirilir. İstehsalat təcrübəsinin təşkili və keçirilməsi qaydaları UNEC Elmi Şurasının 2019-cu il 28 fevral tarixli iclasının EŞ-164 saylı qərarı ilə təsdiq olunmuş qaydalara əsasən həyata keçirilir. Təcrübələrin təşkili zamanı qanunvericiliyin tələblərinin tam yerinə yetirilmədiyi müəyyən edilmişdir. Belə ki, təcrübənin qiymətləndirilməsi müəssisədəki təcrübə rəhbəri tərəfindən aparılır. Tələbələrə ixtisasına uyğun regiondan kənarda fərdi qaydada təcrübə müəssisəsini müəyyən etmək və həmin müəssisədə təcrübə keçmək hüququ verilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında əsasnaməyə" görə yalnız zəruri hallarda istehsalat təcrübəsi təhsil müəssisəsi yerləşən şəhərdən (rayondan) kənarda keçirilə bilər. Təcrübə proqramının yerinə yetirilməsi üzrə nəticələr təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilmiş formada qiymətləndirilməlidir.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

UNEC Zaqatala filialında professor-müəllim heyətinin bilik və bacarıqlarını artırmaq məqsədilə planlanmış qaydada stajkeçmə işi təşkil olunmamışdır. Bəzi müəllimlər müxtəlif təlim və seminarlarda iştirak etmişdirlər.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

UNEC Zaqatala filialında kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi Elm və Təhsil Nazirliyinin 2020-ci il 9 iyul tarixli F-343 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsil Proqramları"nda nəzərdə tutulmadığı üçün təşkil edilmir.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

UNEC Zaqatala filialında təhsilin bakalavriat səviyyəsi üzrə tədris aparılır. Təhsialanlar Yekun Dövlət Attestasiyası imtahanında iştirak edirlər. İmtahan protokolları mövcuddur.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

UNEC Zaqatala filialında imtahan sessiyası UNEC rektorunun əmrinə və buna müvafiq olaraq UNEC Zaqatala filialının direktorunun əmrinə əsasən təşkil olunur. Müvafiq əmrlə sessiya müddətində imtahan komissiyası, apelyasiya komissiyası və qaynar xətt fəaliyyət göstərir. İmtahan sessiyasının nəticələrinə dair hesabatlar hazırlanaraq Elm və Təhsil Nazirliyinə göndərilir.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

UNEC Zaqatala filialında yay semestrinin təşkili UNEC Elmi Şurasının 2022-ci il 31 may tarixli 183 saylı qərarına və normativ hüquqi sənədlərə uyğun olaraq həyata keçirilir. Filialda əyani və qiyabi təhsil alan tələbələr yay məktəbinə müraciət etdikləri təqdirdə kifayət qədər tələbə sayı olarsa yay məktəbi filialda təşkil edilir. Müvafiq fənn üzrə qrup açılması üçün kifayət qədər tələbə müraciəti olmazsa həmin tələbələr UNEC və digər universitetlərə yönləndirilir.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Kredit borcu olan tələbələrin sayında 2016-2017-ci tədris ilindən 2019-2020-ci tədris ilinə qədər hər il müəyyən qədər artım, 2019-2020-ci tədris ilindən 2020-2021-ci tədris ilinə qədər müəyyən qədər azalma müşahidə olunmuşdur. Bu halı pandemiya dövründə imtahanların distant formada keçirilməsi və tələbələrin köməkçi vasitələrdən istifadə etməsinə nəzarət etməyin çətin olması ilə əlaqələndirmək olar. 2020-2021-ci tədris ilindən etibarən akademik borcların sayında yenidən artım dinamikası müşahidə olunur.

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Kredit borcu yaranmış fənlərin sayında 2016-2017-ci tədris ilindən 2019-2020-ci tədris ilinə qədər hər il müəyyən qədər artım, 2019-2020-ci tədris ilindən 2020/2021-ci tədris ilinə qədər azalma müşahidə olunmuşdur. Bu halı pandemiya dövründə imtahanların distant formada keçirilməsi və tələbələrin köməkçi vasitələrdən istifadə etməsinə nəzarət imkanlarının məhdud olması ilə əlaqələndirmək olar. 2020-2021-ci tədris ilindən etibarən kredit borcu yaranmış fənlərin sayında yenidən artım müşahidə olunur.

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Filialda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli 215 nömrəli "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" qərarına uyğun olaraq illik dərs yükü 500 saatdan az olmamaqla (mühazirə, seminar, laborator və praktiki məşğələlərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən az olmayaraq) bölgüsü həyata keçirilir. Saathesabı tədris edilən dərslərin həcminin 240 saatı keçməməsi şərti gözlənilir. Tədrisin təşkili tədris planlarında olan fənlərin sillabuslarına uyğun olaraq həyata keçirilir. Mühazirə və məşğələ dərsləri 2 akademik saat olmaqla təşkil olunur. Kafedra tərəfindən açıq dərslər keçirilir, dərslərdə aşkarlanmış nöqsanların aradan qaldırılması

istiqamətində müvafiq işlər həyata keçirilir. Tətbiq edilən normaların səmərəliliyin izlənməsi və təkmilləşdirmə prosesi sistemli şəkildə qurulmamışdır.

## *3.4 Tədris metodları və üsulları*

### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

UNEC Zaqatala filialında mühazirə və seminar dərsləri ənənəvi və online qaydada keçirilir. Dərs prosesində müxtəlif metodlardan istifadə olunur. Xüsusilə seminar dərslərində biliyin qiymətləndirilməsi üçün ənənəvi qaydada tətbiq olunan frontal sorğu ilə yanaşı quiz (https://quizizz.com/), kahoot (https://kahoot.com/), Google Forms kimi innovativ, yaradıcı və interaktiv metodlardan və proqramlardan qismən istifadə olunur. Tələbələrlə müsahibələr zamanı daha çox quizdən istifadə olunduğu və digər qeyd olunan innovativ metodlardan məlumatsız olduqları aydın olmuşdur. Bu metodlardan müəllimlərin yalnız müəyyən hissəsi istifadə edir.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Tədris prosesində tədris metodlarından istifadə olunması daha çox sual-cavab əsasında həyata keçirilir. Dərslər auditoriyada müəllim kürsüsündə quraşdırılmış kompüter və proyektor vasitəsi ilə keçirilir. Praktiki tətbiqə əsaslanan yanaşmalar üçün isə müvafiq infrastrukturun olmadığı müşahidə edilmişdir.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

UNEC Zaqatala filialında tədris prosesi əyani və qiyabi təhsil forması üzrə təşkil olunur. Filialda istifadə olunan metodlar hər iki təhsil forması üzrə tətbiq olunur.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

Təhsilverənlər tərəfindən təhsilalanlara verilən tapşırıqların yerinə yetirilməsi zamanı tələbələr tərəfindən araşdırmanın edilməsi və müvafiq tapşırığın yerinə yetirilməsində öhdəlik götürmələri üçün müəllimlərin bir qismi tərəfindən bir sıra müasir metodlardan istifadə olunur. Eyni zamanda, tələbənin individual bacarıqları da nəzərə alınmaqla qismən motivasiya olunma da nəzərə alınır.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

Filialda yalnız bakalavriat səviyyəsi üzrə kadr hazırlığı aparılır. Tədris prosesində təhsilalanların fərdi xüsusiyyətləri müəyyən qədər nəzərə alınaraq uyğunlaşdırılır.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

Filialda auditoriyalarda internetin və kompüterlərin olması, eyni zamanda, müəllimlər tərəfindən istifadə olunan müasir yanaşmalar aktiv öyrənməni təşviq edir. Lakin bu yanaşmaları tətbiq edərkən texnologiyalardan müəllimlərin bir qismi aktiv şəkildə istifadə edir.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

UNEC-in Zaqatala filialında tədris prosesində interaktiv metodlardan istifadə edilir, bu əsasən quiz formasında aparılır, müəllimlərin bir qismi müasir metodların tətbiqi zamanı texnologiyalardan istifadə edirlər. Bu isə tələbələri də müasir təlim-tədris və interaktiv öyrənməyə qismən təşviq edir.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

UNEC-in Zaqatala filialında müvafiq istiqamətdə monitorinqin yalnız bir protokolu Akkreditasiya Komissiyasına təqdim olunmuşdur. Aşkar olunan nöqsanların aradan qaldırılması və təkmilləşdirilməsi ilə bağlı müəyyən qədər işlər görülmüş, lakin yaranan çatışmazlıqların aradan qaldırılması üçün kifayət deyildir.

## *3.5 Təlim və tədris resursları*

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

Filialda 2020-ci ildən etibarən tədris prosesinin elektron idarəetmə sistemi "EDUMAN" elektron universitet modelindən istifadə olunur. EDUMAN sistemində dərs cədvəli, elektron jurnal, fənn kataloqu, təqvim planı, tədris materialları, qiymətləndirmə, distant təhsilin təşkili, elektron imtahan sisteminə aid olan EXAM modulu imtahan suallarının hazırlanması, testlərin tərtibi, yekun və aralıq qiymətləndirmənin aparılması, apelyasiyanın təşkili, təqaüdün müəyyən olunması prosesi həyata keçirilir. Eyni zamanda, müəllimlərin (muallim.unec.edu.az) və tələbələrin (kabinet.unec.edu.az) şəxsi kabinetləri mövcuddur. Təhsilalanlar onlara aid müvafiq məlumatları (mühazirə, seminar və.s. materialları) tələbənin şəxsi kabineti bölməsindən əldə edə bilirlər.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Filialda 22 tədris auditoriyası (məşğələ və mühazirə) mövcuddur. Bütün auditoriyalarda quraşdırılmış elektron tribunalar və proyektorlardan tədris prosesində aktiv istifadə olunur.

Bununla yanaşı, 80 nəfər tələbə tutumlu imtahan zalında 80 kompüter və 4 müşahidə kamerasından istifadə olunur.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

EDUMAN sisteminin tərkibində elektron jurnal bölməsi fəaliyyət göstərir. Elektron jurnal vasitəsi ilə ənənəvi dərslərdə tələbələrin davamiyyəti və seminar balı müəllim tərəfindən yazılır. Online dərslərdə isə tələbə Zoom platforması vasitəsi ilə dərsə qoşulduğu zaman avtomatik sistem tərəfindən tələbənin iştirakı qeydə alınır, qiymətləndirməni isə təhsilverən müəllim kabinetində mövcud olan distant jurnal vasitəsi ilə həyata keçirir.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Filialda fənlərin tədrisi prosesində müəllimlər müxtəlif formada hazırladıqları elektron dərs materiallarını "EDUMAN" elektron idarəetmə sistemininin müəyyən hissələrindən və auditoriyalarda quraşdırılmış texniki vasitələrdən istifadə edərək tələbələrə çatdırırlar. Lakin fənlərin tədrisində istifadə olunan, fənnin məzmununa uyğun müxtəlif proqram təminatları yüklənmiş kompüterlər mövcud deyildir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

Tədris auditoriyalarında müəllim kürsüsündə quraşdırılmış kompüterlər, imtahan zalındakı kompüterlər, müəllim və tədris köməkçi heyətin otaqlarındakı kompüterlər internetə qoşulmuşdur. Filialda kompüter laboratoriyası mövcud deyildir. Öncəki dövrdə mövcud olmuş 1 linqafon kabineti və 1 kompüter otağındakı avadanlıqlar artıq istifadəyə yararsızdır. Filialda "İnformasiya texnologiyaları" ixtisası üzrə kadr hazırlığının aparıldığı nəzərə alınsa, ixtisaslaşmış informasiya texnologiyaları laboratoriyasının və tələbələrin istifadəsi üçün sərbəst kompüter otağının təşkil olunmasına ehtiyac vardır.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

UNEC Zaqatala filialında ümumilikdə auditoriya fondunun sahəsi 670 kv.m təşkil edir. I növbədə hər tələbə üzrə 1,57 kv m., II növbədə hər tələbə üzrə 2,27 kv m., qiyabi təhsil formasında hər tələbə üzrə 1,57 kv m. auditoriya fondu düşür.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Filialda 2016-cı ildən 2017-ci ilə qədər 17 auditoriya mövcud olmuşdur. Təhsilalanların sayı artdıqca auditoriya fondu nisbətən genişləndirilmiş və 2021-ci ildən etibarən auditoriyaların sayı 22-yə çatdırılmışdır.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

UNEC-in Əsaslı kitabxanasının bazasında UNEC KİM elektron kitabxana (library.unec.edu.az) fəaliyyət göstərir. Filialda təhsilverənlər və təhsilalanların elektron kitabxanadan istifadə etmələri üçün şərait yaradılmışdır. Lakin filialın əsas kitabxanasının sahəsi çox kiçikdir, dərs vəsaitlərinin sayı azdır və oxu zalı mövcud deyildir.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Filialın kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin sayı barədə Özünütəhlil Hesabatında qeyd olunan məlumatların yerində baxış keçirilən zaman müəyyən illər üzrə məlumatlar ilə uyğun olmadığı aşkar olundu. Daxil olan kitabların hamısı son 5 ildə nəşr olunmamışdır. Kitabların qeydiyyat kataloqu mövcud deyildir.

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Filialın kitabxana fondunda olan kitabların əksəriyyəti tədris dillərinə uyğundur. Artım dinamikası müşahidə olunmur.

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

UNEC Zaqatala filialında dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası müşahidə olunmur.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

Fənlərin tədris materialları əsasən elektron formadadır. Sillabus, mühazirə mətnləri və digər dərsliklər müəllimin şəxsi kabinetinə EDUMAN platforması vasitəsilə tələbələrə çatdırılır. Fənlərin əksəriyyətinin sillabusları və dərs materialları vaxtaşırı yenilənir. Auditoriyalarda zəruri tədris resursları mövcuddur. Distant tədrisin təşkili və EDUMAN-dan istifadə barədə müəyyən təlimlər təşkil olunmuşdur. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi ənənəvi qaydalarla müəyyən qədər təşkil olunmuşdur, müasir və planlı yanaşma müşahidə olunmur.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

2016-cı ildən 2020-ci ilə qədər tədris materialları (mühazirə, təqdimat, seminar və.s) şəxsi e-mail vasitəsilə təhsilverənlər tərəfindən təhsilalanlara göndərilirdi. 2020-ci ildən etibarən fənlərin tədris materialları, sillabus, mühazirə mətnləri, təqdimatlar və digər dərsliklər müəllimin şəxsi kabinetinə (muallim.unec.edu.az) yerləşdirilir və tələbələr istədiyi zaman həmin

materialları şəxsi kabinetləri (kabinet.unec.edu.az) vasitəsilə istifadə etmək imkanına malikdirlər. Tələbələrin elektron öyrənmə resurslarından istifadəsi üçün sərbəst kompüter laboratoriyası, oxu zalı mövcud deyildir. Kitabxanada müasir dərs vəsaitlərinin növü və sayı, tələbələrin istifadəsi üçün simsiz internet şəbəkəsi məhduddur.

#### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

Sağlamlıq imkanları məhdud tələbələrin dərslərə inteqrasiyasına və imtahan prosesində elektron vasitələrdən istifadəsinə filialın əməkdaşları köməklik göstərir. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resursları və uyğunlaşdırılmış infrastruktur mövcud deyildir.

#### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Keçirilmiş monitorinqlərin nəticəsi olaraq tədris materiallarının (sillabus, mühazirə mövzuları, təqdimatların və.s.) təkmilləşdirilməsi istiqamətində müəyyən qədər işlər görülmüşdür. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi sahəsində planlı fəaliyyət müşahidə olunmur.

#### 3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

Filialda sosial, mədəni və idman fəaliyyətlərinin həyata keçirilməsi üçün 4 tələbə təşkilatı (Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifakı Komitəsi, İqtisadçı Vətənpərvərlər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti) fəaliyyət göstərir. Onların fəaliyyəti üçün otaq ayrılmışdır. Tələbə təşkilatları filialın və regionun sosial, mədəni və idman tədbirlərində iştirak edirlər. Filiala sahə səfəri zamanı idman zalı təmirdə olduğu üçün istifadə olunmurdu. Qeyd olunan fəaliyyətlər üçün büdcə resursları ayrılmamış, dəstək planları mövcud deyildir.

#### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

Filialda psixoloji məsləhət xidməti mövcud deyildir. Sözügedən istiqamətdə dəstək tyutor və qruplar üzrə təyin olunmuş mentorlar tərəfindən yerinə yetirilir.

### *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

#### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialında təhsilalanların biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 348 saylı qərarının tələbləri gözlənilməklə UNEC Elmi Şurasının qərarı ilə tənzimlənir. Ümumilikdə, qiymətləndirmə cari və aralıq qiymətləndirmə mərhələlərindən ibarət olmaqla 100 ballıq sistem əsasında həyata keçirilir. Belə ki, 100 ballıq

qiymətləndirmənin 50 balı imtahana qədər, növbəti 50 bal isə sessiya imtahanında qazanılır. İmtahan sessiyası mərkəzləşdirilmiş qaydada kompüterlər vasitəsilə təşkil olunur. Təhsilalan normativ təhsil müddətində tədris planında nəzərdə tutulmuş bütün fənlərin kreditlərini qazandıqdan sonra Yekun Dövlət Attestasiyası (YDA) imtahanına buraxılır. YDA imtahanı mərkəzkəşdirilmiş formada test üsulu ilə keçirilir.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

Filialda bilik və bacarıqların qiymətləndirilməsi "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında ƏSASNAMƏ" ilə müəyyən edilən meyarlara əsaslanır. Biliyin qiymətləndirilməsi "Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə 4 bacarıq üzrə kombinləşdirilmiş üsul ilə, digər bütün fənlərdə isə test üsulu ilə mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

Filialda bilik və bacarıqlarının qiymətləndirilməsinin üz-üzə və məsafədən keçirilməsi üçün lazım olan texniki imkanlar vardır. Pandemiya dövründə biliyin qiymətləndirilməsi mövcud texniki imkanlar vasitəsilə məsafədən həyata keçirilmişdir. Biliyin qiymətləndirilməsi əsasən filialda fəaliyyət göstərən elektron imtahan zalında və auditoriyalarda həyata keçirilir.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Zaqatala filialında imtahanlar mərkəzləşdirilmiş qaydada test üsulu ilə imtahan zalında kompüter vasitəsilə həyata keçirilir. Bu prosesdə şəffaflığın və ədalətliliyin təmin olunması üçün elektron sistem vasitəsilə imtahan zamanı təhsilalanlara avtomatik 50 test tapşırığı təqdim olunur və həmin testlər üzrə imtahanlarını bitirdikdən sonra təhsilalanlar nəticələri ilə tanış ola bilirlər. Şəffaflığın təmin edilməsi və appelyasiya müraciətinə şəraitin yaradılması məqsədilə imtahan bitdikdən sonra həmin test tapşırıqları sistem tərəfindən təhsilalanın şəxsi kabinetinə göndərilir. Mövcud imtahanlar zamanı ədalətliliyin təmin olunması üçün tələbələrə təqdim edilən imtahan sual variantlarının məxfiliyi təmin edilir. Fənn üzrə imtahanların eyni saatda keçirilməsi mümkün olduğu halda imtahanda iştirak edən tələbələrin hamısına eyni imtahan sual variantı təqdim edilir. İmtahanlar fərqli növbələrdə keçirildiyi zaman isə hər bir növbə üzrə fərqli imtahan sual variantı təqdim olunur. Bununla yanaşı, təhsilalanlara eyni imtahan saatında bir neçə imtahan sual variantının təqdim edilməsi təcrübəsindən də istifadə edilir.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Özünüqiymətləndirmə bacarığının formalaşdırılması əsasən seminar dərslərində həyata keçirilir. Belə ki, seminar dərslərində bəzi müəllimlər tərəfindən qrup daxilində bir neçə qrup

yaradılır, müvafiq mövzu əsasında suallar verilir. Yaradılmış qruplar tərəfindən həmin sualların təqdimatı edilir, həm tələbələr, həm də müəllim tərəfindən qiymətləndirmə həyata keçirilir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

2020-ci ildən etibarən tədrisin elektron idarəetmə sistemi “EDUMAN” və elektron imtahan sistemi “EXAM” platformaları fəaliyyət göstərir. Qiymətləndirmə zamanı həmin platformaların modullarından istifadə edilir.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Sağlamlıq imkanları məhdud tələbələrin kompüterlə test imtahan prosesində elektron vasitələrdən istifadəsinə filialın əməkdaşları kömək edir. Sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi qiymətləndirmə üsulları mövcud deyildir.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

UNEC-in Zaqatala filialında cari və aralıq qiymətləndirmə test üsulu ilə mərkəzləşdirilmiş qaydada elektron formada keçirilir. Sözügedən imtahanlarda ədalətliliyin təmin olunması üçün tələbələrə təqdim olunan testlər kompüter vasitəsilə seçilir. İmtahanlarda insan faktoru minimum səviyyədə olduğu üçün şəffaflıq və obyektivlik tam təmin olunur. Bununla yanaşı nəticəsindən narazı olan tələbələrin apelyasiyaya müraciət etməsi üçün müvafiq şərait yaradılır və müəllim və apellyasiya komissiyasının üzvlərinin iştirakı ilə müraciətə baxılır.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

Filialda Yekun Dövlət Attestasiyası (YDA) imtahanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 saylı qərarı ilə təsdiqlənmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” Qaydalarına uyğun həyata keçirilir. YDA “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr səviyyərində dövlət attestasiyası haqqında əsasnamə” ilə müəyyən edilən qaydalar və tələblər əsasında həyata keçirilir. Filialda yekun dövlət qiymətləndirməsi YDA imtahanı formasında həyata keçirilir. YDA imtahanı mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilir.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Hər semestrin sonunda təhsilalanların yekun nəticələri təhlil edilir. Aşağı nəticə göstərilmiş fənlərdə müvəffəqiyyət və keyfiyyət faizinin artırılması istiqamətində təhlillər aparılır və müəyyən qədər tədbirlər görülür.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Yeni qəbul olan tələbələrə ümumi təhsil haqqında qanunvericilik, tədrisin təşkili, kredit sisteminin tələbləri, həmçinin təhsil səviyyəsini bitirmək üçün müvafiq qaydalar haqqında məlumatlar verilir. Bununla yanaşı EDUMAN sisteminin tərkibində bütün tələbələrin şəxsi kabinetləri (kabinet.unec.edu.az) mövcuddur. Təhsilalanlar şəxsi kabinetlərində akademik borclarını, transkriptlərini və digər zəruri məlumatları görə bilirlər ki, bu da onlara bütün məlumatların əldə edilməsini əlçatan edir.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

UNEC-in Zaqatala filialını bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 aprel tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları”na əsasən bakalavr diplomu və diploma əlavələr verilir. Filialda təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi "Qaydası"nın 1 nömrəli əlavəsində verilmiş formaya uyğun olaraq müvafiq arayış verilir.

## *3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

UNEC Zaqatala filialında akademik heyətin işə qəbulu və vəzifəyə təyinatı “Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2018-ci il 5 fevral tarixli F-100 nömrəli əmri və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1996-cı il 7 avqust tarixli 401 nömrəli əmrinin 1 nömrəli Əlavəsi ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun həyata keçirilir. Professor-müəllim heyəti üçün vakansiya elanın verilməsi, seçimi və təsdiq olunması UNEC tərəfindən aparılır, filialın isə bu prosesdə iştirakı məhduddur. İnzibati- texniki

heyətin işə qəbulu filial tərəfindən aparılır. Lakin işə qəbul, vakansiya və qəbul tələbləri ictimaiyyətə elan olunmur.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Filialda işə qəbul olan əməkdaşlar üçün tədrisin elektron idarə edilməsi, "EDUMAN" sistemindən istifadə ilə bağlı təlimlər keçirilir. Lakin müsahibə zamanı filial daxilində akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının tətbiq olunmaması müəyyən edilmişdir.

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

Akademik heyət nümayəndələri interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş bəzi təlimlərdə iştirak etmişdirlər. Əməkdaşlar əsasən pandemiya dövründə distant dərslərin təşkili barədə UNEC tərəfindən təşkil edilmiş onlayn təlimlərdə iştirak etmişdirlər. İnteraktiv və aktiv tədris metodlarının tətbiqi barədə bütün akademik heyətə sistemli təlimlər təşkil olunmamışdır.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

Filialın akademik heyət nümayəndələri 2020-ci ildən etibarən UNEC-in təşkil etdiyi bəzi təlimlərdə iştirak etmişdirlər. Akademik heyətin öz ixtisas sahələrinə aid planlanmış qrafik üzrə ixtisasartırma kurslarında iştirak mexanizmi mövcud deyildir.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

Filialın bir müəllimi 2019-cu ildə 14 təqvim günü müddətinə Mevlana mübadilə proqramında iştirak etmək üçün Türkiyə Respublikasında ezamiyyətdə olmuşdur. Bununla yanaşı, filialda çalışan müəllimlər 2017-2019-cu illərdə UNEC-in Quba mərkəzində təşkil edilmiş təlimlərdə iştirak etmişdir. Beləliklə, hesabat dövründə akademik heyət beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında qismən iştirak etmişdir.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

Nüfuzlu elmi nəşrlərdə əsərləri və məqalələri dərc edilən filial əməkdaşlarının mükafatlandırılması sistemi mövcuddur.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

Dərs yükünün bölgüsü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli 215 saylı "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" qərarı və UNEC elmi şurasının qərarı ilə tənzimlənir. Dərs yükünün bölgüsündə ixtisas istiqaməti, obyektivlik və şəffaflıq əsasən təmin olunur. Bəzi fənlər üzrə müəllim çatışmamazlığına görə həmin fənləri (Xarici dildə işgüzar və akademik kommunikasiya, İKT üzrə fənlər və s.) tədris edən müəllimlərə 1,5 ştat və əlavə saathesabı qaydada akademik yük verilmişdir. Bəzi müəllimlər 10-dan çox fərqli adda fənn tədris edir. Bir müəllimə düşən orta tədris yükünün normadan artıq olması hesabat dövründə keyfiyyətə mənfi təsir etmişdir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

Filial üzrə əsas iş yeri filial olan professor-müəllim heyətinin sayının (33) tələbə sayına (1381) nisbəti 1/42, əsas iş yeri filial olan və əvəzçiliklə cəlb olunmuş professor-müəllim heyətinin sayının (39) tələbə sayına (1381) nisbəti 1/35, əsas iş yeri filial olan, əvəzçiliklə və saat hesabı qaydada tədrisə cəlb olunmuş professor-müəllim heyətinin sayının (40) tələbə sayına (1381) nisbəti isə 1/35 təşkil edir.

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 85%-i filialın əməkdaşıdır. Belə ki, filialda 39 nəfər ştatda və 1 nəfər saathesabı qaydada pedaqoji fəaliyyətlə məşğul olan akademik heyətin 33 nəfərinin əsas iş yeri filialdır.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

Yeni ixtisaslar və fənlər üzrə tələb olunan mütəxəssislərin işə alınması prosesinin yekunlaşmaması, praktik biliklərə malik kadrlara olan ehtiyac və ştatdakı professor-müəllim heyətinin sayının az olması kənardan müəllimlərin cəlb olunması zərurətini ortaya çıxarır.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

UNEC-in Zaqatala filialında akademik heyətə münasibətdə qiymətləndirmə meyarları əsasında UNEC-in differensiallaşdırılmış əməkhaqqı sisteminin tam tətbiq edilmədiyi aşkar olunmuşdur.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş 5 əməkdaşın tədris prosesinə cəlb olunduğu qeyd edilmişdir. Təqdim olunmuş verifikasiya sənədləri əsasında məlum olmuşdur ki, filialda xarici ölkələrin ali təhsil

müəssisələrindən məzun olmuş 5 müəllim fəaliyyət göstərir. Onlardan ikisi Türkiyədə, ikisi Rusiyada və biri Gürcüstanda təhsil almışdır. Akademik fəaliyyətə cəlb olunmuş müəllimlər arasında “Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində təhsil almış şəxslər yoxdur.

### *3.8 Tələbəyönümlü tədris*

#### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

UNEC Zaqatala filialında tələbələrin fərdi tədris planları mövcuddur. Belə ki, fərdi tədris planları əksər hallarda tələbələrin razılığı ilə kafedranın əməkdaşları və tyutorlar tərəfindən hazırlanır. Lakin 113 tələbə arasında keçirilən sorğunun nəticələrinə əsasən onlardan 4 nəfərin FTP-lərin hazırlanmasında iştirak etdiyi, 23 nəfərin hazırlanıb onlara təqdim olunduğu, 86 nəfər tələbənin isə fərdi tədris planlarının tərtib olunması barədə məlumatının olmadığı məlum olunmuşdur.

#### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Sahə baxışı zamanı tələbələrə fənlərin seçimi üçün tam sərbəstliyin verilmədiyi aydın olmuşdur. Belə ki, tədris planında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyini müəyyən etmək üçün 113 tələbə arasında sorğu keçirilmişdir. Nəticə olaraq, 113 tələbədən cəmi 18 nəfərin seçimi sərbəst etdiyi, 47 nəfərin iştirak etmədiyi, 48 nəfərin isə bu barədə məlumatının olmadığı müəyyən olunmuşdur.

#### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

Filialda ixtisas qrupları üzrə eyni fənni tədris edən müəllimlərin sayının kifayət qədər olmaması tələbələrə təhsilverənlərin seçimi imkanlarını məhdudlaşdırır. UNEC Zaqatala filialında 3 nəfər akademik məsləhətçi (2 nəfər əyani təhsil forması üzrə, 1 nəfər isə qiyabi təhsil forması üzrə akademik məsləhətçi (tyutor) fəaliyyət göstərir. Filiala sahə səfəri zamanı akademik məsləhətçilərin ixtisas profillərinin tələbələrin ixtisasına uyğun olmadığı müşahidə edilsə də, onlar kredit sistemi barədə kifayət qədər məlumatlıdırlar. Kadr çatışmamazlığı səbəbindən tələbələrə tyutor seçimi təklif edilmir.

#### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

UNEC Zaqatala filialında son beş ildə bir dəfə 7 istiqamət üzrə sorğu keçirilmişdir. Keçirilən sorğuda iştirak edənlərin sayı qənaətbəxş səviyyədə olmamış və sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsi bəzi istiqamətlər üzrə aşağı olmuşdur. Sorğuların nəticələrinə uyğun olaraq nəzərəçarpan tədbirlər həyata keçirilməmişdir.

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

Akkreditasiya Komissiyasının sahə səfəri zamanı filialda şifahi sorğuların keçirildiyi və təhsilalanların, o cümlədən məzunların təkliflərinin şifahi olaraq nəzərə alındığı bildirilmişdir. Lakin tələbə və məzunların təklifləri əsasında filialda tətbiq olunmuş yeniliklər, ümumilikdə hansı təkliflərin tətbiq edildiyi barədə komissiyaya müvafiq məlumatlar təqdim edilməmişdir.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi vəziyyəti

Təhsilalanların şəxsi kabinetlərində "məmmunluq anketi" bölməsinin mövcud olmasına baxmayaraq, tələbələrin sözügedən bölmədən istifadə etmək imkanına malik olmadığı məlum olmuşdur. Müvafiq məsələ ilə bağlı komissiyaya məlumat təqdim edilməmişdir.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Tələbələr filialda imtahan prosesindən narazı olduğu halda apellyasiyaya müraciət edə bilərlər. Əlavə olaraq, UNEC rəsmi saytına (unec@unec.edu.az), sosial şəbəkə hesablarına (facebook, instagram, teleqram və s.), o cümlədən filialın korporativ elektron poçt ünvanına müraciət edə bilərlər.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

Filialda 2 nəfər əyani təhsil forması üzrə, 1 nəfər isə qiyabi təhsil forması üzrə akademik məsləhətçi (tyutor) fəaliyyət göstərir. İş təcrübəsinin az olmasına və ixtisas profillərinin tələbələrin ixtisasına uyğun olmamasına baxmayaraq, akademik məsləhətçilərin kredit sistemi barədə məlumatlı olduğu filiala sahə səfəri zamanı müşahidə edilmişdir.

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

Filialda tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiyanın təmin edilməsi məqsədilə üzbəüz, eyni zamanda Zoom platforması vasitəsilə görüşlər keçirilir. Əlçatanlığın, sürətliliyin və səmərəliliyin təmin edilməsi məqsədilə şəxsi kabinetlər və Whatsapp qrupları vasitəsilə kommunikasiyanın aparılması təmin edilir. Akademik məsləhətçilər EDUMAN platformasında yeni yaradılmış "məsləhət-müzakirə" paneli vasitəsilə məsləhətlərin verilməsi işini həyata keçirirlər.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

Sağlamlıq imkanları məhdud tələbələrin dərslərə inteqrasiyasını təmin etmək məqsədilə imtahan prosesində həmin tələbələrə elektron vasitələrdən istifadə zamanı filial əməkdaşlarının dəstəyi təmin edilir.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

Filialda "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan (təkrar ali və orta ixtisas təhsili istisna olmaqla) və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımillikləri), eləcə də 2020-2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilmişdir. Əlavə olaraq qeyd etmək lazımdır ki, filialın Elmi Şurasının 2021-ci il 24 dekabr 15 nömrəli qərarına əsasən sosial həssas qrupa aid edilən tələbələrə ildə bir dəfə minimum əmək haqqının iki misli həcmində birdəfəlik maddi yardım verilir.

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Təqaüd almaq hüququ əldə etmiş tələbələr üçün təqaüdlər semestr üzrə imtahan nəticələrinə əsasən Ümumi Orta Müvəffəqiyyət Göstəriciləri (ÜOMG) ayrılmış yerlərə müvafiq olaraq seçilir. Tələbənin təqaüd alma hüququ Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları və UNEC-in daxili qərarları əsasında müəyyən edilir. Belə ki, filialda tədris semestrləri üzrə ən yüksək ÜOMG olan 3 tələbəyə UNEC rektorunun təsis etdiyi rektor təqaüdü verilir.

## *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

UNEC rektorunun müvafiq əmri ilə 2021-ci ildən etibarən filialda monitorinq qrupları fəaliyyət göstərir. Filialda keçirilən monitorinqin nəticələri müzakirə olunduğu, müşahidə olunan çatışmazlıqların aradan qaldırılması istiqamətində müəyyən işlərin görüldüyü Akkreditasiya Komissiyasına bildirilmişdir. Filiala sahə səfəri çərçivəsində təhsil proqramlarının monitorinq strategiyası və təsdiqlənmiş fəaliyyət planının mövcud olmadığı müşahidə edilmişdir.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının

**mövcudluğu**

Təhsil proqramlarında mövcud olan yeni fənlər üzrə UNEC-də yerli və xarici mütəxəssislərin iştirakı ilə təlimlər təşkil edilir və həmin təlimlərin nəticələrinə uyğun olaraq yeni fənn proqramları və sillabuslar hazırlanır. Akkreditasiya Komissiyasının sahə səfəri zamanı filialın sözügedən prosesdə iştirakının qənaətbəxş səviyyədə olmadığı müəyyən edilmişdir.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması istiqamətində filialda görülən işlərin qəbaətbəxş səviyyədə olmadığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

Tədris ilinin sonunda filialda yekun hesabat hazırlanır və müvafiq struktur bölmələrin rəhbərliyi tərəfindən filialın Elmi Şurasında müzakirə edilir. Özünüqiymətləndirmə hesabatlarında tədris prosesinin təşkili və imtahan sessiyasının nəticələri müəyyən qədər öz əksini tapır.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Filialda kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə təhsil proqramları UNEC-in müvafiq işçi qrupu tərəfindən hazırlanır. Yeni təhsil proqramlarının hazırlanması zamanı əmək bazarının nümayəndələrinin təklif və tövsiyələri nəzərə alınır. Qeyd etmək lazımdır ki, filialın bu prosesdə iştirak səviyyəsi aşağıdır.

## *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

Filialda karyera mərkəzinin mövcudluğu vəziyyəti və fəaliyyət istiqamətlərinin təhlili zamanı tələbələrin istehsalat təcrübəsinin təşkilini və karyera inkişafının dəstəklənməsini “UNEC Karyera Mərkəzi” ilə əlaqələndirilən bir əməkdaşın fəaliyyət göstərdiyi müəyyən edilmişdir. Akkreditasiya Komissiyasının sahə səfəri zamanı filialda struktur bölmə olaraq karyera mərkəzinin mövcud olmadığı və müvafiq istiqamətdə fəaliyyət göstərən göstərən əməkdaşın vəzifə öhdəliklərinin müəyyən edilmədiyi məlum olmuşdur.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi istiqamətinin filialıda heç bir struktur bölmənin fəaliyyətində öz əksini tapmadığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Müsahibələr zamanı 2019-cu ildən etibarən məzunların ixtisasına uyğun işlə təmin olunması məqsədilə UNEC Virtual Əmək Birjası portalının (https://job.unec.edu.az/az) fəaliyyət göstərdiyi qeyd olunmuşdur. Portalda qeydiyyatdan keçən hər bir məzunun UNEC-lə əməkdaşlıq edən müəssisələr tərəfindən yerləşdirilən aktiv vakansiya və təcrübə proqramlarına cəlb olunduğu bildirilmişdir.

Kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə məzunların əmək bazarında işlə təmin olunması istiqamətində filialın hər hansı bir struktur bölməsi tərəfindən sistemli olaraq təhlil və araşdırmaların aparılmasına dair heç bir təsdiqedici sənəd Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Özünütəhlil Hesabatında məzunların təhsil aldığı müddətdə təhsil proqramı çərçivəsində əldə etdikləri nəzəri biliklərin gələcək karyera fəaliyyətinə uyğunluğunun araşdırılması məqsədilə mütəmadi olaraq sorğuların keçirildiyi qeyd olunmuşdur. Filiala sahə səfəri çərçivəsində sözügedən sorğuların təhlilinin nəticələrinə dair məlumatlar Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Filialın məzunları ilə davamlı əlaqə saxlamaq məqsədilə “EDUMAN” elektron informasiya sistemində elektron poçt ünvanları mövcuddur. Lakin sözügedən istiqamətdə məzunlar ilə kommunikasiyanın sistematik formada həyata keçirilməsinə dair heç bir təsdiqedici sənəd Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

## 4. ELMİ TƏDQİQAT

### *4.1* Elmi-tədqiqat strategiyası

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

#### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

#### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

#### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

#### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Hesabat dövrü üzrə UNEC Zaqatala filialının elmi-tədqiqat strategiyasının hazırlanmadığı filiala sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Elmi-tədqiqat strategiyasının hazırlanması prosesini əks etdirən hər-hansı mexanizm də mövcud deyildir. Qeyd etmək lazımdır ki, filialda elmi-tədqiqat fəaliyyətinin həyata keçirilməsi üzrə məsul nümayəndə ilə müsahibə zamanı da belə bir sənədin mövcud olmadığı ifadə edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, 4.1-ci meyarın indikatorları üzrə əhatəli qiymətləndirmənin aparılması mümkün olmamışdır.

### *4.2* Tədqiqat resursları

#### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

Elmi-tədqiqat strategiyasının olmaması səbəbindən filialın infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyətinin müəyyən edilməsi mümkün olmamışdır. Mövcud olan bir kompüter laboratoriyasında kompüterlərin işlək vəziyyətdə olmadığı müşahidə edilmişdir. Qeyd etmək lazımdır ki, UNEC Elmi Şurasının 2023-cü il 27 yanvar tarixli qərarına əsasən filialın nəzdində UNEC Regional İqtisadiyyat Tədqiqat Mərkəzinin yaradılması və əsasnaməsinin təsdiq olunmasına baxmayaraq, mərkəzin fəaliyyəti barədə Akkreditasiya Komissiyasına hər-hansı məlumat təqdim edilməmişdir.

Filialda tədqiqat büdcəsinin bölgüsü və onun illər üzrə dəyişmə dinamikası ilə bağlı təsdiqedici sənədlərin mövcud olmadığı filiala sahə səfəri zamanı müəyyən edilmişdir. Müvafiq olaraq, tədqiqat büdcəsinin bölgüsünün izlənilməsi və təkmilləşdirilməsinin aparılması mümkün olmamışdır. Həmçinin, filialın büdcəsindən elmi-təqiqata ayrılan maliyyə vəsaiti haqqında məlumatları əks etdirən sənədlər də Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

#### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Filialda 33 nəfərdən ibarət professor-müəllim heyətinin 35 faizi sahələri üzrə müvafiq olaraq elmi-tədqiqat fəaliyyəti ilə məşğuldur. Sözügedən istiqamətdə tədqiqatlar iqtisad elminin bütün spektrini əhatə edir.

#### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Filialda aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması üçün müvafiq fəaliyyətin həyata keçirilmədiyi müşahidə edilmişdir. Fəlsəfə doktoru proqramı üzrə təhsil alan 3 gənc tədqiqatçının isə digər təhsil müəssisələrinin qiyabi doktorantı olduğu məlum olmuşdur. Qeyd etmək lazımdır ki, filialın gənc müəllimlərinin elmi-tədqiqat fəaliyyətinin nəticəsində fərdi şəkildə elmi məqalələri dərc olunmuşdur.

#### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

UNEC Zaqatala filialının beynəlxalq elmi-məlumat bazalarına (Web of Science, Scopus və s.) çıxışını təmin edən xidmət və mexanizmin mövcud olmadığı müəyyən edilmişdir.

#### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Filialda nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün rəsmi stimullaşdırıcı mexanizmin mövcud olmadığı müşahidə edilmişdir. Bununla belə, qeyd etmək lazımdır ki, xaricdə məqaləsi nəşr olunmuş bəzi müəllimlərə maddi mükafatların verilməsi ilə bağlı təcrübə mövcuddur.

#### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

Filialın elmi-tədqiqat fəaliyyəti nəticəsində gəlirlərinin olmaması səbəbindən tədqiqat büdcəsinin bölgüsünün izlənilməsi və təkmilləşdirilməsi üçün əsasların mövcud olmadığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

#### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Filiala sahə səfəri zamanı bir neçə ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatlar ilə tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu qeyd edilsə də, müvafiq sahədə əməkdaşlıq müqavilələrinin mövcud olmadığı müəyyən edilmişdir.

### *4.3 Elmi-tədqiqat fəaliyyəti*

#### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üçün filialda ayrıca struktur bölmə mövcud deyildir. Müvafiq istiqamətdə fəaliyyətin həyata keçirilməsi İqtisadiyyat və idarəetmə kafedrasına həvalə edilmişdir (elmi-tədqiqat fəaliyyəti ilə bağlı müddəalar 2020-ci il 13 yanvar tarixində filial direktoru tərəfindən təsdiq edilmiş kafedra əsasnaməsində öz əksini tapmışdır). Qeyd etmək lazımdır ki, filialın rəsmi təsdiq olunmuş elmi-tədqiqat strategiyası və elm-tədqiqat fəaliyyətini əks etdirən illik fəaliyyət planları da mövcud deyildir. Müsahibə zamanı kafedra tərəfindən illik fəaliyyət planı təqdim edilsə də, sözügedən fəaliyyət planı kafedranın daxili sənədidir və rəsmi təsdiq olunmamışdır.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

UNEC Zaqatala filialında 2018-ci ildən 2023-cü ilədək 10-na yaxın elmi-tədqiqat xarakterli konfransların, seminar və digər tədbirlərin təşkili barədə görüşlər zamanı məlumat verilmişdir. Eyni zamanda, Filialın rəsmi internet səhifəsində (https://unec.edu.az/zaqatala-fillali/) həmin tədbirlər barədə məlumat təqdim edilmişdir.

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

Sahə səfəri zamanı hesabat dövründə filialın elmi-tədqiqat xarakterli tədbirlərində onlarla kənar təşkilatın iştirak edildiyi bildirilmişdir. Filialın rəsmi internet səhifəsində (https://unec.edu.az/zaqatala-fillali/) isə 2018-2023-cü illərdə sözügedən tədbirlərdə 20-dən çox təşkilat və bir neçə yüz nümayəndənin iştirak etdiyi qeyd olunmuşdur.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

TEC-in sədri ilə müsahibə zamanı UNECZaqatala filialında gənc tələbə-tədqiqatçılar Tələbə Elmi Cəmiyyətinin təşkil etdiyi filial daxili elmi tədqiqat xarakterli tədbirlərdə iştirak etdiyi bildirilmişdir. Belə tədbirlər haqqında TEC bir neçə buklet təqdim etsə də, bunların da dəyirmi masalar olduğu müəyyən edilmişdir. Digər elmi tədqiqat xarakterli tədbir və dəyirmi masaların keçirilməsi haqqında heç bir sənəd, proqram və hesabatlar mövcud deyildir.

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

### 4.3.7 İnstitusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialı milli və beynəlxalq səviyyədə birgə proqramların və beynəlxalq qrant layihələrinin icrasında iştirak etməmiş, o cümlədən filialda elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiyalaşdırılması fəaliyyəti həyata keçirilməmişdir.

#### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialının birgə tədqiqat proqramlarında iştirak etmədiyi Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Filial tərəfindən Bakı Dövlət Universiteti, Sumqayıt Dövlət Universiti, Türkiyə Respublikası Süleyman Dəmirəl Universiteti ilə birgə tədqiqat proqramlarında iştirak edildiyi qeyd edilsə də, təlimlər və beynəlxalq proqramlarda iştirak barədə təsdiqedici sənədlər sahə səfəri zamanı Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

#### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

UNEC Zaqatala filialının tədqiqatçılarının beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak etmədiyi Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

#### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialında 3 tədris metodiki vəsait və 2 proqram hazırlanmışdır. “Turizm Destinasiyalarının İdarəedilməsi” adlı vəsait filialın gənc müəllimləri, Azərbaycan Turizm və Menecment Universiteti, Şəki Destinasiya Menecment Təşkilatı və Türkiyə Respublikasından olan mütəxəssislər ilə birgə araşdırmanın nəticəsi olaraq ərsəyə gəlmişdir.

#### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

UNEC Zaqatala filialının özünün nəşr etdiyi jurnal olmasa da, filialın professor-müəllim heyəti üçün UNEC-in aşağıdakı elmi jurnallarının əlçatanlığı təmin olunmuşdur:

- Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri;
- İqtisad elmləri: nəzəriyyə və praktika;
- UNEC Ekspert;
- Azərbaycanın Vergi jurnalı;
- UNEC Journal of Engineering and Applied Sciences.

#### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

UNEC Zaqatala filialında tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası müşahidə edilmir.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

Filialda magistratura və doktorantura səviyyələri üzrə tələbə qəbulu həyata keçirilmir.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

UNEC Zaqatala filialında akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlər, seminarlar və digər sistematik fəaliyyətlər qismən həyata keçirilmişdir. 2018-2019-cu ildə Quba qış məktəbinə 8 nəfər, 2019-2020-cu ildə UNEC-də təşkil olunan təlimə 6 nəfər və 2020-2021-ci ildə UNEC-də təşkil olunan təlimə 6 nəfər filial əməkdaşı göndərilmişdir. İqtisadiyyat və idarəetmə kafedrasının iş planına müvafiq olaraq professor-müəllim heyətinin tədqiqat və inkişaf bacarıqlarının təkmilləşdirilməsi müzakirə olunur.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

Doktorantura proqramlarının təşviqi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğunu sübut edən mexanizm və sənəd filialda mövcud deyildir. Qeyd etmək lazımdır ki, kənar elmi müəssisələrdə fəlsəfə doktoru proqramı üzrə qiyabi formada təhsil alan 3 doktorant filialda pedaqoji fəaliyyətə cəlb edilmişdir.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

UNEC Zaqatala filialında ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi vəziyyəti barədə məlumatlar mövcud deyildir.

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialında elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsinin orta illik göstəricisi 2,6 faiz təşkil etmişdir.

### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyası filialın elmi tədqiqat hədəflərinə qismən uyğundur.

#### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

UNEC Zaqatala filialında elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcud olmadığı məlum olmuşdur. Qeyd etmək lazımdır ki, filialda elmi-tədqiqat sahəsində fərqlənən əməkdaşların mükafatlandırılması həyata keçirilir.

#### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

Filialda doktorantura səviyyəsi üzrə tələbə qəbulu həyata keçirilmir.

### *4.4* Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

#### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

UNEC Zaqatala filialında UNEC-in antiplagiat və akademik dürüstlük siyasətinə istinad edilir, lakin ayrıca siyasət sənədi mövcud deyildir.

#### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

Filialda köçürmə hallarının qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcud olmadığı müəyyən edilmişdir.

#### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Filialda antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi məlum deyildir.

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1* İdarəetmə orqanları

#### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialının strukturu, maddi-texniki bazası və kadr potensialı UNEC Elmi Şurası tərəfindən müəyyənləşdirilmiş və UNEC rektoru tərəfindən təsdiq edilmişdir. Filialın

struktur bölmələri tədris prosesinin təşkilində, onun həyata keçirilməsində bilavasitə iştirak edir, UNEC Elmi Şurasının qərarlarını, UNEC rektorunun əmr və sərəncamlarını, eləcə də filial direktorunun əmr və sərəncamlarını yerinə yetirir (UNEC Zaqatala filialının 20 oktyabr 2016-cı il tarixli Əsasnaməsi, müddəa 1.11).

Filialın fəaliyyətinə rəhbərlik bilavasitə direktor tərəfindən həyata keçirilir. Direktor UNEC rektorunun təqdimatı əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təyin olunur və ya vəzifəsindən azad edilir. Filialın Elmi Şurası seçkili orqandır, onun yaradılması və fəaliyyəti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilən "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə", UNEC Nizamnaməsi və filialın Əsasnaməsi ilə tənzimlənir. Direktor filialın Elmi Şurasının sədridir. Filialın direktor müavini UNEC Zaqatala filialının direktorunun təqdimatı əsasında UNEC rektoru tərəfindən təyin olunur. Filialın fakültəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada bu vəzifəyə təyin olunmuş dekan rəhbərlik edir. Kafedraya rəhbərliyi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin olunan kafedra müdiri həyata keçirir. (UNEC Zaqatala filialının 20 oktyabr 2016-cı il tarixli Əsasnaməsi, müddəa 4.1 - 4.6).

Filialın idarəetmə strukturunun fəaliyyəti və idarəetmə orqanlarının vəzifə öhdəlikləri UNEC Nizamnaməsi və UNEC Zaqatala filialının Əsasnaməsinə əsasən həyata keçirilir.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

Filial Elmi Şurasının tərkibində tələbə təşkilatlarının təmsilçiliyi öz əksini tapmışdır. Belə ki, Elmi Şuranın 2023-də təsdiq edilmiş Fəaliyyət Planında Fakültə Tələbə Elmi Cəmiyyətin nümayəndəsinin hesabatı nəzərdə tutulmuşdur.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

UNEC Zaqatala filialının idarəetmə orqanlarının iclasları və tədbirləri təsdiq edilmiş fəaliyyət planına, Elmi Şuranın gündəliyinə uyğun həyata keçirilir.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

UNEC Zaqatala filialında idarəetmə orqanlarının fəaliyyət qrafiki tədris ilinin əvvəlində hazırlanan iş planlarında öz əksini tapır. Elmi Şura və digər idarəetmə orqanlarının sənədləri ilə tanışlıqdan belə qənaətə gəlmək olur ki, iş planlarına müvafiq olaraq məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi proseduru mövcuddur. Eyni zamanda, DocNet elektron sənədləşmə sistemi vasitəsilə sənədlərin aidiyyəti struktur bölmə rəhbərləri tərəfindən yaradılması və müvafiq qaydada icraçılara yönəldilməsi yolu ilə rəsmiləşdirilməsi həyata keçirilir.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

UNEC Zaqatala filialının idarəetmə orqanları tərəfindən qərarlar qanunvericiliyin tələblərinə uyğun olaraq qəbul edilir. DocNet elektron sənədləşmə sistemi vasitəsilə idarəetmə orqanının – filialın Elmi Şurasının qərarlarının struktur bölmə rəhbərlərinə təqdim olunması təmin edilir və icra vəziyyətinə nəzarət həyata keçirilir.

**5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

UNEC Zaqatala filialında idarəetmə orqanları arasında qarşılıqlı əlaqə və kommunikasiya DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə tənzimlənir. Lakin bütün inzibati heyətin sistemə giriş imkanı olmadığından məlumatlar struktur bölmələrin rəhbər işçiləri tərəfindən tabeliyində olan əməkdaşlara ötürülür.

**5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

UNEC Zaqatala filialının idarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü UNEC Zaqatala filialının 20 oktyabr 2016-cı il tarixli Əsasnaməsində öz əksini tapmışdır.

**5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti**

Özünütəhlil Hesabatında UNEC Zaqatala filialının idarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin icrasının rəhbərlik tərəfindən həyata keçirildiyi və yerinə yetirdikləri fəaliyyətə görə rəhbərliyə hesabat vermələri barədə məlumat öz əksini tapmışdır. Sahə səfəri zamanı müsahibələrdə də bu məsələ qeyd olunsa da, müvafiq sənədlər təqdim edilməmişdir.

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

Özünütəhlil Hesabatında qeyd olunur ki, idarəetmə prosesi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, Ali təhsil müəssisələri haqqında Əsasnaməyə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına, UNEC Nizamnaməsinə və filialın ali idarəetmə orqanının - Elmi Şurasının qərarlarına müvafiq olaraq həyata keçirilir.

### *5.2 İnsan resurslarının idarə edilməsi*

**5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

Özünütəhlil Hesabatında akademik heyətin işə qəbulu, "Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 5 fevral 2018-ci il tarixli F-100 №-li əmri və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 avqust 1996-cı il tarixli 401 №-li əmrinin 1 №-li Əlavəsi ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə və elan olunmuş gənc müəllim layihələri və ingilis

dili müəllimləri üçün aparılan müsahibə vasitəsilə, qeyri-akademik heyətin isə “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli 1196-V.Q. №-li Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin “Məşğulluq Alt Sistemi”ndə filial tərəfindən verilmiş elana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilirdiyi barədə məlumatlar öz əksini tapmışdır. Sahə səfəri zamanı və əməkdaşlarla müsahibə nəticəsi olaraq müəyyən edilmişdir ki, akademik heyətin işə qəbulu UNEC tərəfindən və ya onunla razılaşma əsasında həyata keçirilir. Belə ki, heyətin işə cəlb olunması və yeni vakant yerlərin yaradılması prosesində filial direktorunun bu qərarı UNEC rektoru ilə razılaşdırması sənədlərdə öz təsdiqini tapmışdır (Əmr №03/90).

### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

Özünütəhlil Hesabatında qeyd edilmişdir ki, filialın akademik və inzibati heyəti onun strateji inkişaf və maliyyə planlarına uyğundur. Filialın strateji inkişaf proqramı olmadığından indikatorun tələblərinin verifikasiyasının aparılması mümkün olmamışdır.

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

UNEC Zaqatala filialında hesabat dövründə inzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi mexanizmi mövcud olmadığından səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq inzibati heyətin fəaliyyətində əmək haqqı sisteminin dəyişməsi sahə səfəri zamanı müəyyən edilməmişdir. Müsahibələr zamanı əməkdaşların fərdi şəkildə qiymətləndirilməsi və mükafatlandırılması ilə bağlı fikirlər söylənilsə də, bu işlərin hansı mexanizm əsasında aparılması bildirilməmiş və müvafiq sənədlər təqdim olunmamışdır.

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

Filial rəhbərliyi tərəfindən əmək funksiyasının yüksək peşəkarlıqla yerinə yetirilməsində və müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilərin pul və digər həvəsləndirmə vasitələri ilə mükafatlandırması sənədlərdə öz əksini tapmışdır.

Eyni zamanda, akademik heyətin nüfuzlu elmi nəşrlərdə elmi məqalələrinin çap edilməsinə görə mükafatlandırma sisteminin mövcudluğu bildirilmişdir. İnzibati heyətin müxtəlif təlimlərə yönləndirilməsi və onların mükafatlandırılmasına dair sübutedici əmrlər sahə səfəri zamanı əldə edilmişdir.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

UNEC Zaqatala filialının professor-müəllim heyətinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi ildə bir dəfə UNEC Diferensial Əmək Haqqı Sisteminin tələblərinə əsasən həyata keçirilir. Bununla yanaşı filialda UNEC rektorunun 17 noyabr 2021-ci il tarixli 265/1/2021 nömrəli və 4 oktyabr 2022-ci il tarixli 217 /1/2022 nömrəli əmrlərinin icrası üçün dərslərin təşkili və keçirilməsinə nəzarəti təmin etmək məqsədilə monitorinq qrupları yaradılmışdır.

Hesabat dövründə inzibati heyətin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi aparılmamışdır.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

Professor-müəllim və inzibati heyətin təlim və ixtisasartırma ehtiyacları müvafiq kafedranın təqdimatları əsasında müəyyənləşdirilir. Özünütəhlil Hesabatına əsasən filial əməkdaşlarının peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onlar mütəmadi olaraq təlimlərdə və konfranslarda iştirak edirlər. UNEC Zaqatala filialının 8 fevral 2019-cu il tarixli 03-01/04 №-li, 24 may 2019-cu il tarixli 03-01/13 №-li, 13 dekabr 2019-cu il tarixli 03-01/25 №-li və s. əmrləri ilə işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilmələri müvafiq sənədlərdə öz təsdiqini tapmışdır.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

Filial səviyyəsində, habelə struktur bölmələrdə işçilər üçün milli və dövlət bayramları münasibətilə və yubileylərlə bağlı tədbirlər, habelə rayonlara ekskursiyalar və s. sosial-mədəni tədbirlər təşkil edilir. Bu istiqamətdə aparılan fəaliyyət UNEC Zaqatala filialının Elmi Şurasının 2022/2023-cü tədris ili üçün iş planında, sahə səfəri zamanı müsahibələrdə və digər sənədlərdə öz əksini tapmışdır.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Özünütəhlil Hesabatında struktur bölmə rəhbərləri istisna olmaqla qeyri-akademik heyətin işə qəbul prosesinin “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli 1196-V.Q. №-li Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin “Məşğulluq Alt Sistemi”ndə filial tərəfindən verilmiş elana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilməsi haqqında məlumat öz əksini tapmışdır.

Sahə səfəri zamanı və respondentlərlə müsahibə əsasında belə qənaətə gəlmək olar ki, əksər əməkdaşların vakant yerə seçimi və namizədin uyğunluğunu UNEC ilə razılaşdırıldıqdan sonra filial direktoru tərəfindən aparılır.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

Müsahibələr zamanı əməkdaşların fərdi şəkildə qiymətləndirilməsi və mükafatlandırılması ilə bağlı fikirlər söylənilsə də, bu işlərin hansı mexanizm əsasında aparılması bildirilməmiş və müvafiq sənədlər təqdim olunmamışdır.

### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

Əmək müqavilələrinin bağlanması yaxud onlara xitam verilməsi əsasları Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir.

### *5.3 Maliyyə resurslarının idarə edilməsi*

#### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

Filialın maliyyə resursları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 avqust 2019-cu il tarixli 365 nömrəli Qərarı ilə təsdiq olunmuş "Azərbaycan Dövlət İqtisad Universiteti" PHŞ-in Nizamnaməsinə uyğun olaraq ödənişli təhsildən əldə edilən vəsaitdən, dövlət hesabına təhsilalanlara görə və təqaüdlərin ödənilməsi üçün dövlət büdcəsindən maliyyələşmələr və qanunla qadağan olunmayan digər mənbələrdən formalaşmışdır.

#### 5.3.2 Maliyyə resurslarının qısa və ortamüddətli dövr üçün planlaşdırma səviyyəsi

UNEC Zaqatala filialında maliyyə resursları qısamüddətli dövr üçün (illik) planlaşdırılır. Belə ki, illik (qısa dövr üçün) planlaşdırma cari maliyyə ili üzrə tutulan "Gəlirlər və xərclər smetası"na əsasən həyata keçirilir. Filialın büdcə gəlirləri içərisində qeyri-təhsil haqqı gəlirlərinin payı 2021-ci il üçün 1,3% təşkil etmişdir.

Filial tərəfindən 2016-cı təqvim ilindən etibarən təqvim illəri üzrə müvafiq maliyyə hesabatları təqdim olunmuşdur. Cari təqvim ilinə dair 31 dekabr 2022-ci il tarixli (Forma №1) Maliyyə Vəziyyəti Haqqında Hesabat (VÖEN 51011446711), 31 dekabr 2022-ci il tarixli Xalis Aktivlər/Kapitalda Dəyişikliklər Haqqında Hesabat, VÖEN 51011446711 (Forma №3) və 31 dekabr 2022-ci il tarixli Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat – birbaşa metod (Forma №4) sənədlərində təqdim edilmişdir.

#### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, filialda maliyyə resurslarının planlaşdırılması və istifadə vəziyyətinin öyrənilməsi məqsədilə monitorinqlər həyata keçirilir. Belə ki, maliyyə resurslarının illik "Gəlirlər və xərclər smetası"nda nəzərdə tutulan istiqamətlər üzrə istifadəsinin icra vəziyyəti araşdırılır.

Aşağıdakı qrafikdə hesabat dövründə müəssisənin ümumi büdcəsinin dinamikası göstərilmişdir:




#### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

Filial fəaliyyətə başladığı vaxtdan hal-hazırkı dövrədək əlavə maliyyə resurslarının əldə olunması, növbəti illərdə əlavə maliyyə mənbələrinin cəlb olunması istiqamətində hər hansı tədbirlərin həyata keçirilməsi müşahidə edilməmişdir. Lakin UNEC-in mövcud imkanlarından yararlanmaqla bu sahədə irəliləyişə nail olmaq olar.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Sahə səfəri zamanı filial tərəfindən təqdim olunmuş sənədlərin təhlili əsasında qeyd etmək olar ki, əldə olunan maliyyə resurslarından səmərəli qaydada istifadə olunur.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarının istifadəsi illik “Gəlirlər və Xərclər smetası”na uyğun aparılmışdır ki, bu da filialın Əsasnaməsində öz əksini tapmışdır. Fəaliyyət dövründə filialın prioritet və qeyri-prioritet istiqamətində olan xərcləri Əsasnamənin tələblərinə uyğun şəkildə icra edilmişdir.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Filialın “Gəlirlər və Xərclər smetası” hər bir maliyyə ili üzrə hazrlanmışdır. Hər bir maliyyə ili üzrə tərtib edilmiş smeta filialın Əsasnaməsinin tələblərinə uyğun olaraq UNEC-lə razılaşdırıldıqdan sonra təsdiq edilməsi üçün Elm və Təhsil Nazirliyinə göndərilmiş, Elm və Təhsil Nazirliyində smeta təsdiq edildikdən sonra onun icrası filialın Əsasnaməsinə uyğun olaraq həyata keçirilmişdir. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması UNEC Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

UNEC Zaqatala Filialının maliyyə resurslarından istifadə smetaya uyğun şəkildə təyinatı üzrə icra olunur. Hər bir xərc maddəsi üzrə ödənişlər təsdiqedici sənədlər və normativ hüquqi aktlara əsasən aparılır. Maliyyə resurslarının icrasına cari nəzarət sistemli şəkildə olmaqla müntəzəm olaraq həyata keçirilir.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma proseduru KİS/Pr/07 “Satınalma Proseduru” və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir. Satınalma prosesinin icrası müqavilələr, bank sənədləri (bank təminatı, qaimələr və s.) əsasında həyata keçirilərək, müvafiq mühasibat sənədlərində və hesabatlarında öz əksini tapmışdır.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

UNEC Zaqatala filialında “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır, maliyyə hesabatları tərtib olunur və aidiyyəti üzrə təqdim edilir. Sahə səfəri zamanı müvafiq istiqamətdə tərtib olunmuş hesabatlara baxış keçirilmişdir.

#### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

UNEC Zaqatala filialında maliyyə və mühasibat hesabatları tərtib olunaraq müvafiq dövlət qurumlarına göndərilir. Tərtib olunmuş hesabatlar (aylıq, rüblük, illik) qanunvericiliyin tələblərinə uyğun olaraq dövlət orqanlarına təqdim edilir. Sahə səfəri çərçivəsində müvafiq hesabatların təhlili əsasında filialda maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunduğunu və aidiyyəti orqanlarla işin qurulmasının qənaətbəxş vəziyyətdə aparıldığını qeyd etmək olar.

#### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

Maliyyə və mühasibat hesabatlarının ictimaiyyət üçün əlçatanlığı və müvafiq mənbələrdə dərc olunması məqsədəmüvafiq hesab edilir.

#### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili auditinin aparılması üzrə fəaliyyət filialın tərəfindən deyil, UNEC tərəfindən aparılır.

#### 5.3.14 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit və digər nəzarət tədbirləri UNEC tərəfindən təşkil edilir.

#### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

Sahə səfəri zamanı filialın maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi ilə bağlı fəaliyyət aşkar olunmamışdır.

### *5.4 İnformasiya idarəetmə sistemi*

#### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

UNEC Zaqatala filialında UNEC rektorunun 23 sentyabr 2019-cu il tarixli 180/1/2019 nömrəli əmrlə yaradılmış işçi qrupu tərəfindən 2020-ci ildən elektron universitet “EDUMAN” və “EXAM” sistemləri qurulmuşdur. 2019-cu ildə yaradılmış modullara texniki dəstəyin aparılması məqsədilə saathesabı müqavilə bağlanmış, modul dərslərin təşkil edilməsi üçün yeni dərs cədvəli üzrə müqavilə təsdiqlənmiş və EXAM təkmilləşdirmə müqaviləsi hazırlanmışdır. 2020-ci ildən etibarən sənəd qəbulunun elektronlaşdırılması prosesi həyata keçirilmiş və sənəd qəbulu modulu istifadəyə verilmişdir. 2021-ci ildə kommunikasiya modulu üzrə texniki tapşırıq hazırlanaraq təsdiq edilmiş, tələbə və müəllim kabinetlərinin isə “Zoom” platformasına inteqrasiyası təmin edilmişdir. D/Y-7045/2020 saylı xidməti məlumatla EDUMAN sisteminin təkmilləşdirilməsinə dair təkliflərə əsasən FTP/Tədris yükü modulu üzrə texniki tapşırıq hazırlanmış və 2022-ci ildə texniki tapşırıq təsdiq olunmuşdur.

Kargüzarlıq işləri “DocNet“ elektron sənəd dövriyyəsi sistemi vasitəsilə aparılır.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

Filialda informasiya idarəetmə sistemi çərçivəsində proseslərin əhatəliliyi və funksionallığı “EDUMAN” və “EXAM modulu” olmaqla tədrisin dərs cədvəli, elektron jurnal, fənn kataloqu, təqvim planı, tədris materialları, qiymətləndirmə, distant təhsilin təşkili, kommunikasiya sahələrinin, imtahan suallarının hazırlanması, testlərin tərtibi, yekun və aralıq qiymətləndirmənin aparılması, apelyasiyanın təşkili prosesi həyata keçirilir.

UNEC Zaqatala filialı ilə UNEC arasında rəsmi proseduraların həyata keçirilməsi üçün “DOCNET” elektron sənəd dövriyyəsi sistemi mövcuddur.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

UNEC Zaqatala filialında informasiya idarəetmə sisteminin fəaliyyəti UNEC-in müvafiq struktur bölmələri ilə paralel aparılır. EDUMAN elektron idarəetmə sistemi vasitəsilə dərs cədvəli, fənn üzrə qrup bölməsi, laboratoriya bölməsi, tələbə, məzun bölməsi dekanlıqlara, fənn kataloqu, təqvim tematik plan bölmələri kafedraya təhkim edilmiş, dekanlıq və kafedranın adıçəkilən bölmələr üzrə keyfiyyətli fəaliyyətinin təmin edilməsi, eyni zamanda EDUMAN sistemindəki digər funksiyalar isə UNEC EXTERN mərkəzinə həvalə edilmişdir.

İmtahanların təşkili məqsədilə yaradılmış EXAM sistemində də səlahiyyətlərin bölgüsü idarəetmə strukturuna uyğun olaraq aparılmışdır. Belə ki, imtahan qeydiyyatının yaradılması dekanlıqlara, sualların göndərilməsi (məxfi suallar istisna) İmtahan Mərkəzinə, sualların yaradılması və təsdiqi kafedraya həvalə edilmişdir.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

Filialda tədris prosesi EDUMAN və EXAM sistemi vasitəsilə həyata keçirilir. Həmçinin, filiala qəbul olan tələbələrin sənəd qəbulu elektron sistem vasitəsilə həyata keçirilir.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

UNEC Zaqatala filialında informasiya idarəetmə sisteminin əlçatanlığı tələbə və müəllimlər üçün yaradılmış kabinetlər vasitəsi ilə təmin olunmuşdur. “Elektron universitet” modeli tətbiq olunur. Tələbələr şəxsi kabinetləri vasitəsilə dərs cədvəllərini, tədris materiallarını, imtahan nəticələrini, imtahandan öncə təqdim edilən imtahan testlərini əldə edə bilir və digər xidmətlərdən istifadə edirlər.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

Özünütəhlil Hesabatında qeyd olunur ki, filialda Avropa Keyfiyyət Standartı və Təlimatlarına (ESG 2015) əsasən keyfiyyət təminatı sisteminin tələbəyönümlü olması nəzərə alınaraq qurulmuş informasiya idarəetmə sistemində tələbələrin məlumatlara, tədris materiallarına əlçatanlığının təmin edilməsi üçün tələbə və müəllim kabinetləri yaradılmışdır. Təhsilalanlar şəxsi kabinetləri vasitəsilə tədris materiallarının əldə olunması və tədris prosesinin istənilən zaman izlənilməsinə malikdirlər. Biliyin qiymətləndirilməsi üçün isə EXAM elektron imtahan sistemi mövcuddur.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

UNEC Zaqatala filialında tətbiq edilən EDUMAN sisteminin Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi (TMİS) ilə inteqrasiyası mövcud deyildir. Lakin məsul əməkdaşlar tərəfindən zəruri məlumatların TMİS sisteminə daxil edilməsi həyata keçirilir.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

UNEC Zaqatala filialında informasiya idarəetmə sistemində təhlükəsizliyin təmin olunması məqsədilə EDUMAN və EXAM sistemlərində təhsilverənlər, təhsilalanlar və idarəetmə heyəti üçün şəxsi şifrələr mövcuddur. Həmin şifrələr sadəcə istifadəçi tərəfindən dəyişdirilə və yenilənə bilər. Şifrələrin unudulması zamanı yalnız yeni şifrələnin təyin olunması müvafiq tərəfdaş şirkət tərəfindən həyata keçirilir.

## *5.5 İctimaiyyətlə əlaqələr*

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, UNEC Zaqatala filialının rəsmi saytı mövcud deyildir. Lakin mövcud məlumatlar UNEC rəsmi saytı (unec.edu.az) vasitəsi ilə paylaşılır. Bununla yanaşı, 2018-ci ildə UNEC-də yaradılmış UNECNews (https://news.unec.edu.az/) xəbər saytı vasitəsilə filialda keçirilmiş tədbirlər, tələbələrin uğurları və digər zəruri məlumatlar ictimaiyyətə çatdırılır.

#### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

Filial barədə UNEC-in rəsmi saytında məlumatlar vaxtaşırı yenilənir, eləcə də baş verən yeniliklər ictimaiyyətə “UNEC News” vasitəsilə çatdırılır.

#### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

UNEC Zaqatala filialı haqqında məlumatlar UNEC-in rəsmi saytı ilə (unec.edu.az) yanaşı rəsmi sosial şəbəkələrində paylaşılır.

#### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

Hesabat dövründə filialın ictimaiyyətin məlumatlandırılması ilə bağlı hər-hansı fəaliyyət planı hazırlanmamışdır.

#### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

UNEC Zaqatala filialı barədə məlumatların həm UNEC-in rəsmi saytı vasitəsilə, həm də UNEC Zaqatala filialının sosial şəbəkələrdəki hesabları vasitəsilə əldə edilməsi mümkündür. Bununla yanaşı, UNEC qaynar xətti (1846 Qaynar Xəttinə) vasitəsilə və filialın müvafiq əlaqə nömrəsindən məlumat əldə etmək olar.

#### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

Filialda məlumatlandırma fəaliyyətinin monitorinqi ilə əlaqədar heç bir təsdiqedici sənəd təqdim edilməmişdir.

## 6. İNFRASTRUKTUR

### *6.1 Tədris infrastrukturu*

#### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

UNEC Zaqatala filialında tədris prosesinin təşkil olunduğu binanın 6 mərtəbədən ibarət olmaqla ümumi sahəsi 5020 m$^2$ (reyestr №-si 402011002045-12101), onun da faydalı sahəsi 4507,7 m$^2$ təşkil edir. Burada faydalı sahənin əsas sahəsi 1401,4 m$^2$, köməkçi sahəsi isə 3106.3 m$^2$ olmaqla dövlət standartlarına uyğun olaraq müəyyən edilir. Filialda 22 auditoriya (məşğələ və mühazirə), 1 linqafon kabineti, 1 kitabxana, Heydər Əliyev muzeyi, 1 kompüter otağı, inzibati heyət üçün 7 iş otağı, akademik heyətin əmək fəaliyyəti göstərməsi üçün 3 iş otağı, 2 akt zalı,

imtahan zalı, 2 təsərrüfat otağı, yeməkxana, idman zalı və tələbə yataqxanası fəaliyyət göstərir. Filialın binası nəqliyyat vasitələri hərəkət edən yoldan 25 metr məsafədə yerləşir.

UNEC Zaqatala filialının tədris binası, o cümlədən tədris otaqları tədrisin təşkili üçün əsasən uyğundur. Belə ki, mühazirə və məşğələ dərsləri üçün nəzərdə tutulmuş auditoriyaların sahəsi 670 $m^2$ təşkil edir ki, mövcud sahə təlim-tədris prosesinin təşkili üçün kifayət hesab edilə bilər.

Filialda 2021-2022-ci tədris ili üzrə tədris binasında hər təhsilalana düşən faktiki sahə 4,2 $m^2$ təşkil edir ki, onun da faydalı sahəsi 3,8 $m^2$ olmaqla normativlərə uyğundur.

Baxış keçirilmiş auditoriyaların kompüter və tələbələr üçün nəzərdə tutulmuş "ağıllı" (Smart) lövhələrlə təchiz olunmadığı müşahidə edilmişdir. Bununla belə, bütün auditoriyalar müəllimlərin istifadəsi üçün nəzərdə tutulmuş kompüter və proyektor ilə təmin olunmuşdur.

İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 10 (ümumi sahəsi 443 $m^2$), akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 1 (sahəsi 48 $m^2$) otaq təşkil edir.

Ümumilikdə, tədris binasının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2012-ci il tarixli 87 saylı "Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu normativləri"nin təsdiq edilməsi haqqında və 3 avqust 2012-ci il tarixli 171 saylı "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin təsdiq edilməsi haqqında Qərarlarına əsasən qənaətbəxş olaraq müəyyən edilə bilər.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

Filialın tədris binasında kitabxana və oxu zalları nəzərdə tutulmuşdur. Kitabxananın ümumi sahəsi 152 $m^2$, hər təhsilalana düşən faydalı sahə 0,011 $m^2$ təşkil edir. Kitabxana yalnız 1 internet xəttinə qoşulmuş kompüter ilə təmin edilmişdir və onun ümumi fondundakı kitab sayı 4822 ədəd təşkil edir.

Kitabxanaya əyani baxış zamanı kitabxanada daxil olan kitablar, dərs/dərsliklər və s. vəsaitlərin inventarizasiyasına (qeydiyyatına) dair reyestr sənədləri aşkar edilməmiş (*son sənəd dövriyyəsi 2018-ci il olaraq təqdim edilmişdir*) və kitabxana otağının sahəsinin normativlərə uyğun olmadığı müəyyən edilmişdir. Tələbələr üçün nəzərdə tutulan qiraət zalının əsasən auditoriya dərslərinin təşkili üçün istifadə edilməsi də sahə baxışı zamanı müəyyən edilmişdir. Həmçinin, filialda "elektron" kitabların oxunması üçün lazımi infrastrukturun mövcud olmaması (UNEC-in təqdim etdiyi EDUMAN kitabxanası) müşahidə edilmişdir.

Sahə səfəri zamanı tələbələr arasında sorğu nəticəsində onların kitabxana fondundan narazılığı müşahidə edilmişdir. Belə ki, kitabların əsasən bədii ədəbiyyatdan ibarət olması, digərlərinin isə müasir elmi tələblərə cavab vermədiyi müəyyən edilmişdir. Tələbələrin filialın Wi-Fi şəbəkəsinə girişinin təmin edilməməsi səbəbindən tədris binasında və filialın digər ərazilərində elektron resurslardan istifadənin mümkünsüzlüyü müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, tələbələr üçün elektron kitabxana mövcuddur ki, tələbə-müəllim heyətinin müxtəlif açıq (AgEcon-Kənd təsərrüfatı və iqtisadiyyata dair resurslar, elmi kataloq, dərslik kitabxanası, jurnallar, Ankara Universitetinin resursları, Birləşmiş Millətlər Kitabxanası, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, müxtəlif bilik sahələri üzrə resurslar, Elsevier,

Hindawi, siyasi elmlərə dair jurnallar, Bakı Dövlət Universitetinin resursları, EconBiz, Dünya Rəqəmsal Kitabxanası, Kembric Universiteti Nəşri, İstanbul Universiteti kitabxanası, Universal Rəqəmsal Kitabxana-Milyon Kitab Kolleksiyası, İKSAD Beynəlxalq Nəşriyyat Evinin kitabxanası) və abunə olunmuş (IPRSMART, Emerald, EBSCOhost) bazalara girişini təmin edir (https://library.unec.edu.az/t-dqiqat).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2012-ci il tarixli 87 saylı "Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu normativləri"nin təsdiq edilməsi haqqında və 3 avqust 2012-ci il tarixli 171 saylı "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin təsdiq edilməsi haqqında Qərarlarına əsasən normativlərdə təsnif edilmiş qiraət zalına, fərdi məşğələlər və qrup müzakirələrinin aparılması üçün kabinetlərə, tələbələrin sərbəst elektron resurslardan istifadəsi üçün kompüter otaqlarına və s. zərurət vardır.

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Filialda sahəsi 36,3 $m^2$ olan 1 linqafon otağı vardır. Sahə səfəri zamanı müəyyən edilmişdir ki, istifadə üçün nəzərdə tutulan avadanlıq aşınmaya məruz qalmış və yenilənməsinə (standartlara uyğunlaşdırılması) zərurət vardır. Həmçinin, filialda 1 üter otağı fəaliyyət göstərir. Burada da sahəyə baxış zamanı kompüterlərin sayının az olması və faktiki olaraq həmin otağın tədris auditoriyası kimi istifadə edilməsi təsdiqlənmişdir.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialında mövcud ixtisaslar üzrə təlim prosesinin həyata keçirilməsinə xidmət edən ümumilikdə 1 kompüter laboratoriyası mövcuddur ki, onun da ümumi sahəsi 34,5 $m^2$ təşkil edir. Sözügedən laboratoriyaların imtahanların keçirilməsi zalı kimi istifadə edilməsi müəyyənləşdirilmişdir.

Tədris binasının texniki pasportunda ümumi sahəsi 272 $m^2$ olan 8 laboratoriya otaqları pasportun təsnifatı üzrə müəyyənləşdirilmişdir. Sahə baxışı zamanı bu laboratoriyaların auditoriya kimi istifadə edilməsi müəyyən edilmişdir. Habelə, onların Zaqatala İqtisad Məktəbinin tədrisə aid sənədlərində nəzərdə tutulmadığı da müşahidə edilmişdir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Filialda istehsalat-təcrübə bazasının yaradılması üçün gələcəkdə bu sahəyə investisiyanın yönəldilməsi məqsədəmüvafiq hesab edilir.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialında seçmə fənlər üzrə dərslər distant formada həyata keçirilir. Filialda distant təhsil infrastrukturu EDUMAN elektron universitet idarəetmə sistemi olaraq "ZOOM" platforması üzərindən təmin edilir. Distant təhsilin müasir standartlara uyğun təşkili üçün studiyaların mövcudluğu yerində baxış zamanı öz təsdiqini tapmamışdır. Həmçinin, filialın

tədris binasında tədrisin hibrid formada (əyani və distant) təşkilinə imkan verən auditoriyaların yaradılması və distant tədrisin aparılması filialın tələbə artımına və əlavə gəlir əldə etməsinə şərait yaradacaqdır.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

Filialın balansında müəyyən tədbirlərdə istifadə olunması üçün professor-müəllim heyəti və digər əməkdaşların istifadəsində heç bir minik avtonəqliyyət vasitəsi nəzərdə tutulmamışdır. Filiala gəlmək üçün ictimai nəqliyyat qismən əlçatandır.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

Filialda mövcud tədris infrastrukturu təhsilalanlar və əməkdaşlar üçün ümumən əlçatandır. Lakin fakültəyə baxış zamanı kafedra otaqlarında müəllimlər üçün ayrılmış sahə və kompüterlərin sayının müəllimlərin sayına nisbətdə az olduğu müşahidə edilmişdir (AR NK 3 avqust 2012-ci il tarixli 171 saylı Qərar, 5.3.5.1., hər biri 50 m$^2$ olmaqla, 6 kafedra).

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Ödənişli əsaslarla bakalavriat və magistratura səviyyələrində təhsil alan və sağlamlıq imkanları məhdud şəxslərin sayı 2022-2023-cü tədris ilində 13 nəfər təşkil etmişdir. UNEC Zaqatala İqtisad Məktəbində sağlamlıq imkanları məhdud şəxslərin problemlərinin araşdırılması və həll edilməsi üçün tədris auditoriyalarının xüsusi avadanlıqlarla təmin olunması labüddür.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialının Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri xidmətinin 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən təsdiqlənən texniki pasportunun tədris binasına aid olan sxemində və ona müvafiq təsnifatında binanın 1-ci mərtəbəsində sahəsi 49,9 m$^2$ olan 1 yeməkxana otağının fəaliyyəti nəzərdə tutulmuşdur. Sahəyə baxış zamanı müəyyən edilmişdir ki, həmin yeməkxana ümumi sahəsi 65,9 m$^2$ olmaqla tədris binasının zirzəmisinə köçürülmüş, əməkdaşlarının və təhsilalanların istifadəsində təqdim edilmişdir.

Mövcud qanunvericiliyə (AR NK 23 aprel 2012-ci il tarixli 87 saylı Qərar) əsasən yeməkxanada qida qəbulu zalı, mətbəx istehsalat və köməkçi otaq, bufet mövcuddur və sanitar normalara qismən cavab verir.

Yerində baxış zamanı yeməkxanada tələbələr üçün ümumi say tutumu olaraq 50 yer müəyyən edilmişdir. Qanunvericiliyə əsaslanaraq, yeməkxanada oturacaq yerləri tələbə sayına nisbətdə azdır (*AR NK 3 avqust 2012-ci il tarixli 171 saylı Qərar, 5.3.20. Ali təhsil müəssisələrində bufetlərin və yeməkxanaların nəzdində tələbələrin 2 növbədə 100 faiz yerləşdirilməsi əsas qəbul edilməklə, ümumi sahəsi 1 yerə 1,6 m$^2$ hesablanmış yemək qəbulu zalı nəzərdə tutulur*).

Yeməkxanada qidalanma xidmətinin müvafiq normativlərə uyğun təşkil edildiyini təsdiq edən sənədlərin mövcud olduğu qeyd edilsə də, yeməkxanaların giriş qapılarında məlumat lövhəsi müşahidə edilməmişdir.

Qeyd etmək lazımdır ki, yeməkxana 15 dekabr 2022-ci ildə imzalanmış "İaşə xidmətlərinin təşkili və göstərilməsinə dair birgə fəaliyyət müqaviləsi" əsasında (xidməti müqavilə) podratçı şəxs tərəfindən təşkil edilir (VÖEN:5102149372).

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialında kifayət qədər böyük tutumu olan ümumi sahəsi 2360.6 $m^{2}$-lik 5 mərtəbəli yataqxana tələbələrin istifadəsinə verilmişdir. Sahəyə baxış zamanı yataqxananın yaşayış normalarına uyğun olmadığı: binada yaşayış üçün şəraitin olmaması, mövcud isitmə sisteminin yararsız olması, yuyunma otaqlarının, kanalizasiya sisteminin, mətbəx və digər otaqların vəziyyətinin ürəkaçan olmaması halı müşahidə edilmişdir. Həmçinin, yataqxana sakinlərinə dair heç bir hesabatın aparılmaması, mövcud rəsmi ödəniş mexanizmlərinin olmaması aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, filial rəhbərliyinin yeni yataqxana kompleksinin tikilməsi üçün UNEC-ə müraciət etməsi barədə şifahi məlumat əldə edilmişdir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialının Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri xidmətinin 18 saylı Zaqatala Ərazi İdarəsi tərəfindən təsdiqlənən texniki pasportunun tədris binasına aid olan sxemində və ona müvafiq təsnifatında binanın 1-ci mərtəbəsində sahəsi 17,1 $m^2$ olan 1 tibb otağının fəaliyyəti nəzərdə tutulmuşdur. Sahə səfəri zamanı müəyyən edilmişdir ki, həmin otaq ümumi sahəsi 17,7 $m^2$ olmaqla tədris binasının zirzəmisinə köçürülmüşdür. Tibb otağında telefon rabitəsi, müraciət edənlər üçün ayrıca izolyasiya otağı nəzərdə tutulmamışdır.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialının strukturunda kompüter mütəxəssisi vəzifəsi mövcuddur və bu sahə üzrə 1 əməkdaş fəaliyyət göstərir. Tədris binasında tələbələrin istifadəsi üçün kompüter otaqları və wi-fi şəbəkəsindən istifadə nəzərdə tutulmamışdır. Lakin professor-müəllim və inzibati heyət tərəfindən istifadəsində əlçatanlıq təmin olunur.

İmtahanların keçirilməsi üçün lokal serverə bağlı 80 ədəd kompüterlə təmin edilən otaq tələbə sayına qismən uyğundur. Filialdakı bütün mövcud kompüterlərin internetə çıxışı təmin olunmuşdur. Bütün əməkdaşlar və təhsilalanlar üçün korporativ elektron poçt ünvanları yaradılmışdır. Filialda istismar edilən şəbəkə serverinin yerləşdirilməsi və soyudulması texniki-normativ qaydalara uyğun deyildir. Bu səbəbdən də əksər tələbə və müəllimlərin internet xidmətindən istifadəsi zamanı kəsintilərlə üzləşdikləri halı müsahibə zamanı öz təsdiqini tapmışdır.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris infrastruktunun istifadəsinin və istifadəyə yararlılığının monitorinqinə dair heç bir normativ sənəd, yoxlama qrafiki və s. təqdim edilməmişdir. Lakin auditoriya, kafedra otaqları, kitabxana, sanitar qovşaqları və digər xidməti otaqların təmizliyi təmin edilmişdir.

Müvafiq auditoriyalarda “auditoriyalardan istifadə qaydaları” haqqında məlumat lövhələrinin olması məqsədəuyğun olardı.

### *6.2 Elmi-tədqiqat infrastrukturu*

#### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

UNEC Zaqatala filialının nəzdində Regional İqtisadiyyat Tədqiqat Mərkəzi UNEC Elmi Şurasının 27 yanvar 2023-cü il tarixli iclasının 186 nömrəli Qərarı və UNEC rektorunun 16 fevral 2023-cü il tarixli 106/3/2023 nömrəli əmrinə əsasən yaradılmışdır. (https://unec.edu.az/education/unec-elmi-tedqiqat-merkezleri/unec-regional-iqtisadiyyat-tedqiqat-merkezi/). Yeni yaradıldığından mərkəzin struktur heyəti, fəaliyyət planı, rəhbər və üzvlərin təyinatı ilə bağlı işlərin yaxın zamanda görülməsi nəzərdə tutulmuşdur.

#### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Filialda elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların yaradılmasına inzibati cəhətdən tam şərait vardır. Bu istiqamətdə işlərin aparılması məqsədəmüvafiq hesab edilir.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1 Beynəlmiləlləşmə siyasəti*

#### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

“UNEC-100” İnkişaf Strategiyasında beynəmiləlləşmə ilə əlaqədar müddəalar öz əksini tapsa da, UNEC Zaqatala filialının ayrıca beynəlmiləlləşmə siyasəti mövcud deyildir.

#### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Filialın beynəlmiləlləşmə siyasəti mövcud olmadığından mübadilə proqramlarının siyasət səviyyəsində təşviqi vəziyyəti bəlli deyildir. Digər tərəfdən, Özünütəhlil Hesabatında hesabat dövündə professor-müəllim heyətindən 5 nəfərin Türkiyənin müvafiq universitetlərində mübadilə proqramında iştirak etməsi, onlardan 1 nəfərin Mevlana mübadilə proqramı üzrə Türkiyə universitetlərinə ezam olunması qeyd edilmişdir.

#### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma vəziyyəti

Filialın beynəlmiləlləşmə siyasəti mövcud olmadığından əcnəbi təhsilalanların siyasət səviyyəsində təşviqi vəziyyəti bəlli deyildir. Eyni zamanda, hesabat dövründə filialda heç bir əcnəbi tələbə təhsil almamışdır.

#### 7.1.4 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

Beynəlmiləlləşmə siyasəti mövcud olmadığından beynəlxalq tədqiqatçılarla bağlı siyasət bəlli deyildir. Sahə səfəri zamanı filialda hesabat dövründə heç bir beynəlxalq tədqiqatçının fəaliyyət göstərmədiyi məlum olmuşdur.

#### 7.1.5 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

UNEC Zaqatala filialında beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına mübasibətdə vəziyyət bəlli deyildir və ümumən bu istiqamətdə hesabat dövründə hər-hansı fəaliyyət olmamışdır.

#### 7.1.6 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Hesabat dövründə filialda heç bir ikili diplom proqramı həyata keçirilməmişdir.

#### 7.1.7 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

UNEC Zaqatala filialının beynəlmiləlləşmə siyasəti mövcud olmadığından onun dövrü yenilənməsi vəziyyəti bəlli deyildir.

### *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu*

#### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

#### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

UNEC Zaqatala filialında beynəlmiləlləşmə proseslərini idarə edən hər-hansı struktur bölməsi mövcud deyildir.

#### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialının tələbələri mübadilə proqramlarında iştirak etməmiş və onların kreditlərinin tanınması ilə bağlı hər-hansı mexanizm tətbiq edilməmişdir.

#### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialında tədris prosesinə heç bir əcnəbi müəllim cəlb edilməmişdir.

#### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialında beynəlmiləlləşmə siyasəti mövcud olmadığından onun idarəedilməsinin səmərəliliyinin monitorinqi mexanizmi tətbiq olunmamışdır.

#### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialında heç bir ikili diplom proqramı həyata keçirilməmişdir.

#### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

Özünütəhlil Hesabatı və ona əlavələrdə 5 müəllimin mübadilə proqramında iştirakı qeyd olunsa da, hesabat dövründə bu istiqamətdə dinamika mövcud olmamışdır.

#### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

Hesabat dövründə filialın 5 müəllimi mübadilədə iştirak etsə də, filialda mübadilə prosesi ilə bağlı heç bir daxili prosedur tətbiq edilməmişdir.

#### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

Hesabat dövründə filialda mübadilənin dinamikası barədə vəziyyət bəlli deyildir.

#### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

Hesabat dövründə UNEC-in Zaqatala filialı beynəlxalq reytinqlərdə təmsil olunmamışdır.

### *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

#### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

#### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

#### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialında beynəlmiləlləşmə siyasətinin icrası üçün müvafiq struktur bölməsi olmadığından maliyyə resursu və insan resursu ayrılmamış və infrastruktur mövcud olmamışdır.

#### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialında beynəlmiləlləşmə siyasətinin icrası üçün maliyyə, insan resursu və infrastruktur ayrılmadığından onların monitorinqi və qiymətləndirilməsi prosesi həyata keçirilməmişdir.

### *7.4 Beynəlmiləlləşmə performansı*

#### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

#### 7.4.2 Beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Hesabat dövründə UNEC Zaqatala filialında beynəlmiləlləşmə siyasəti və aidiyyəti struktur bölməsi mövcud olmadığından və ümumiyyətlə bu istiqamətdə çox cüzi fəaliyyət olduğundan, nəticələrin dinamikasına nəzarət mexanizmi tətbiq edilməmiş və təkmilləşdirmə fəaliyyətləri aparılmamışdır.

## Komissiyanın istiqamətlər üzrə təhlili

| **1. Strateji inkişaf** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Lazımi infrastrukturun (yeni bina, təchiz olunmuş tədris auditoriyaları) mövcudluğu;<br>2. Azərbaycanın şimal-qərb bölgəsində yerləşən ən böyük ali təhsil müəssisəsi olması. |
| **Zəif tərəflər** | 1. Filialın strateji inkişaf proqramının və gələcək strateji baxışının olmaması;<br>2. Strateji qərarların qəbulunda və maliyyə məsələlərində məhdud muxtariyyət. |
| **İmkanlar** | 1. Azərbaycanda region ATM-lərinin rolunun artması və ali təhsil sahəsində dövlət proqramları çərçivəsində dövlət səviyyəsində onlara dəstək imkanları;<br>2. Regionlarda universitet-sənaye əməkdaşlığının genişlənməsi imkanları. |
| **Təhdidlər** | 1. Xaricdə təhsil imkanlarının genişlənməsi;<br>2. Qərb və şimal-qərb bölgələrində yerləşən Mingəçevir Dövlət Universiteti, Bakı Dövlət Universitetinin Qazax filialı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı kim region ATM-lərinin mövcudluğu ilə ali təhsildə ölkədaxili rəqabət mühitinin kəskinləşməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Filialın ölkədaxili və beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsinə yönəlmiş strateji fəaliyyət planının (SFP) hazırlanması, qəbulu və icrasının təmin olunması;<br>2. SFP-də ölçülə bilən hədəflərin müəyyən olunması;<br>3. SFP-nin dövri olaraq monitorinqi və qiymətləndirilməsinin aparılması. |

| **2. Keyfiyyət təminatı** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Keyfiyyət təminatı və qiymətləndirmə üzrə mütəxəssis ştatının mövcudluğu. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. Keyfiyyət təminatı siyasətinin, sisteminin və komissiyasının mövcud olmaması;<br>2. Keyfiyyət təminatı və qiymətləndirmə üzrə mütəxəssis ştatının İqtisad Məktəbinin tərkibində fəaliyyət göstərən katib ştatına tabe olması;<br>3. Keyfiyyət təminatı və qiymətləndirmə üzrə mütəxəssisin işini tənzimləyəcək əsasnamə, təlimat və ya fəaliyyət proqramının olmaması. |
| **İmkanlar** | 1. UNEC-də mövcud olan keyfiyyət təminatı siyasəti, sistemi və mexanizmlərinin Zaqatala filialında istifadə edilməsi imkanı. |
| **Təhdidlər** | 1. Gənc mütəxəssislərin bölgə ATM-lərində işləməyə, eləcə də elmi fəaliyyətə marağının azalması;<br>2. Yerli və xarici ATM-lərin keyfiyyət göstəricilərinin yüksəlməsi ilə UNEC Zaqatala filialının tələbə qəbulunun azalması riski. |
| **Komissiyanın tövsiyəsi** | 1. Keyfiyyət təminatı siyasətinin qəbul edilməsi və tətbiqi;<br>2. Keyfiyyət təminatı sisteminin və komissiyasının təşkili və fəaliyyətə başlaması;<br>3. Keyfiyyət təminatı üzrə müstəqil struktur bölmənin yaradılması;<br>4. Filialın gənc müəllimlərinin elmi-tədqiqat fəaliyyətinə dəstək göstərilməsi. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Elektron Universitet İdarəetmə Sistemindən (EDUMAN) istifadə olunması;<br>2. İmtahanların elektron təşkili və imtahan nəticələrinin operativ elan olunması;<br>3. UNEC-in tədris metodiki bazasından və elektron kitabxanasından istifadə olunması;<br>4. UNEC-in “İqtisadiyyat”, “Menecment”, “Mühasibat uçotu”, “Marketinq”, “Maliyyə”, “Biznesin idarə olunması” kimi ənənəvi ixtisaslarla yanaşı, bölgənin iqtisadi fəaliyyət sahələrinə uyğun ixtisasların (məsələn, “Turizm işinin təşkili və otelçilik”; “İnformasiya texnologiyaları”) mövcudluğu. |
| **Zəif tərəflər** | 1. İxtisasların profilinə uyğun professor - müəllim heyətinin azlığı;<br>2. Tələb olunan sayda oxu zallarının olmaması;<br>3. Professor-müəllim heyəti arasında elmi dərəcəsi olanların çəkisinin azlığı;<br>4. Professor-müəllim heyətinin müasir təlim və tədris metodlarından qismən istifadə etməsi;<br>5. Akademik heyət üçün UNEC-in differensial əmək haqqı sisteminin tam tətbiq olunmaması;<br>6. Yataqxanada müəllim və tələbələrin yaşaması üçün tam şəraitin olmaması; |

| | |
|---|---|
| | 7. İKT dərsləri üçün ayrıca kompüter otağının mövcud olmaması. |
| **İmkanlar** | 1. Regionda yaşayan tələbələri filialda təhsilə cəlb etmək imkanları və əlçatanlıq;<br>2. Yaxın qonşu ölkələrdən əcnəbi tələbə qəbulunu həyata keçirmək imkanları;<br>3. Əmək bazarının tələbinə uyğun tədrisin təşkili prosesini təkmilləşdirmək məqsədilə işəgötürənlərin və məzunların təkliflərinin nəzərə alınması imkanının olması;<br>4. Təhsilə çıxış imkanlarını yaxşılaşdırmaq üçün maliyyə mexanizminin - Tələbə Kreditləri Sisteminin mövcudluğu;<br>5. Ölkədə ATM-lərin maddi-texniki bazasının gücləndirilməsi və ATM-lərdə tədris fəaliyyətinin təkmilləşdirilməsi təşəbbüslərini dəstəkləyən Təhsilin İnkişafı Fondunun mövcudluğu. |
| **Təhdidlər** | 1. Region ATM-ləri arasında rəqabətin artması;<br>2. Filialda təklif olunan ixtisaslar üzrə yerli və beynəlxalq sertifikasiya proqramlarının mövcudluğu;<br>3. Əmək bazarı tərəfindən məzunların işə götürülməsində marağın azalması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Qəbul olunmuş tələbələrin əvvəlki təhsildə qazandıqları kreditlərinin tanınması meyarlarının hazırlanıb tələbələrə elan olunması;<br>2. Filialda tələbələrin növbəti tədris ili üçün dərs qeydiyyatının EDUMAN vasitəsilə tələbələr tərəfindən həyata keçirilməsinin təmin edilməsi;<br>3. Filialın gənc müəllimlərinin elmi-tədqiqat fəaliyyətinə dəstək göstərilməsi;<br>4. Kitabxana və korpuslarda tələbələr üçün məşğələ və oxu zallarının təşkil edilməsi;<br>5. UNEC-in differensial əmək haqqı sisteminin tam şəkildə tətbiqinin təmin olunması;<br>6. Professor-müəllim heyəti üçün müasir tədris metodları ilə bağlı təlim kurslarının təşkil edilməsi;<br>7. Filiaıln yerləşdiyi bölgədəki müəssisələrlə əlaqələrin gücləndirilməsi ilə tələbələrin karyera imkanlarının artırılması;<br>8. Filialın ixtisaslarının profillərinə uyğun əmək bazarından mütəxəssislərin filialda tədrisə cəlb olunması;<br>9. Mövcud yataqxananın əsaslı təmir olunması;<br>10. İKT dərsləri üçün ayrıca kompüter otağının təşkil olunması. |

## 4. Elmi tədqiqat

| | |
|---|---|
| **Güclü tərəflər** | 1. Filialın iqtisadiyyatın müxtəlif sahələrinə malik güclü potensialı olan bir regionda yerləşməsi;<br>2. Filial olmasına baxmayaraq UNEC-dən əvvəlki dövrdən etibarən formalaşmış tədqiqat fəaliyyəti. |
| **Zəif tərəflər** | 1. Elmi-tədqiqat strategiyasının olmaması;<br>2. Elmi-tədqiqat strategiyası olmadığı üçün elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının mümkünsüzlüyü;<br>3. Elmi sahənin təşkili və idarə edilməsi üzrə struktur bölmənin olmaması;<br>4. Elmi-tədqiqat strategiyası sənədi olmadığı üçün filialın missiya və hədəflərinin olmaması;<br>5. Elmi-tədqiqat mərkəzlərinin və laboratoriyaların olmaması;<br>6. Beynəlxalq elmi-məlumat bazalarına çıxışı təmin edəcək heç bir xidmət və mexanizmin olmaması;<br>7. Beynəlxalq səviyyəli elmi tədbirlərin keçirilməməsi;<br>8. Tələbə Elmi Cəmiyyətinin məhdud fəaliyyəti;<br>9. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmin olmaması;<br>10. İqtisadiyyat və idarəetmə kafedrasının əsasnaməsinin Elmi Şura tərəfindən təsdiq olunmaması;<br>11. Filialda UNEC-in antiplagiat proqramından istifadə edilməməsi. |
| **İmkanlar** | 1. Filialın yerləşdiyi regionun elmi-tədqiqat sahəsində potensialının geniş olması;<br>2. Filial əməkdaşlarının UNEC-in elmi-tədqiqat sahəsindəki təcrübəsindən istifadə etmək imkanı;<br>3. Filialın UNEC-in filialı olması vasitəsilə milli və beynəlxalq elmi-tədqiqat və təhsil müəssisələri ilə əlaqə qurmaq imkanı. |
| **Təhdidlər** | 1. Ölkədəki ATM-lərin beynəlxalq nüfuzlu jurnallarda nəşr aktivliyinin aktiv olmaması;<br>2. Ölkədəki ATM-lərin elmi tədqiqat fəaliyyətindən əldə edilən gəlirlərinin olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Elmi sahənin təşkili və idarə edilməsi üzrə struktur bölmənin yaradılması;<br>2. Elmi-tədqiqat strategiyasının hazırlanması;<br>3. Elmi-tədqiqat mərkəzlərinin və laboratoriyalarının yaradılması;<br>4. Elmi tədqiqatın inkişaf mexanizminin hazırlanması;<br>5. Elmi tədqiqatın inkişaf etdirilməsi üçün maliyyə resurslarının ayrılması;<br>6. Beynəlxalq elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi; |

| | |
|---|---|
| | 7. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmin yaradılması;<br>8. Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin gücləndirilməsi;<br>9. İqtisadiyyat və idarəetmə kafedrasının əsasnaməsinin Elmi Şura tərəfindən təsdiq olunması;<br>10. Filialda UNEC-in antiplagiat proqramından istifadə imkanlarının yaradılması. |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Filialda "EDUMAN" və "DocNet Elektron Sənəd Dövriyyəsi" sistemlərinin qurulması;<br>2. Filial Elmi Şurasının tərkibində maraqlı tərəflərin təmsil olunması;<br>3. İşçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi. |
| **Zəif tərəflər** | 1. EDUMAN platformasının yaradılmasına baxmayaraq tələbələr arasında kommunikasiya zamanı hələ də "Whatsapp" qruplarından istifadə edilməsi;<br>2. Struktur bölmələrinin funksiyalarında oxşarlıq;<br>3. Mühasibatlıq, İnsan Resursları, Tədris və ümumi işlər üzrə mütəxəssisin ayrı-ayrılıqda sənəd dövriyyəsi ilə məşğul olması və vahid kargüzarlıq sisteminin olmaması;<br>4. Akademik və inzibati heyətin işə qəbulu üzrə natamam qaydaların mövcudluğu. |
| **İmkanlar** | 1. Müasir texnoloji inkişafın idarəetmə üçün daha geniş imkanlar açması;<br>2. Tətbiq olunan proqram təminatlarından ("EDUMAN", "DocNet Elekton Sənəd Dövriyyəsi") daha geniş formada istifadə olunması;<br>3. İnformasiya təhlükəsizliyi sahəsində Beynəlxalq Standartların tələblərinin tətbiq olunması. |
| **Təhdidlər** | 1. Maliyyə resurslarının orta və uzunmüddətli dövr üçün planlaşdırılmaması;<br>2. Təlim-tədris prosesinin həyata keçirilməsi və xidmətlərin uyğunluğuna nail olunması üçün zəruri infrastrukturun qorunub saxlanması məqsədilə Tədbirlər Planının formalaşdırılmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Akademik və inzibati heyətin işə qəbul prosesi üzrə qaydaların hazırlanması və tətbiq edilməsi;<br>2. Təşkilati strukturun təkmilləşdirilməsi, strukturlar arasında koordinasiya əlaqələrinin yaxşılaşdırılması və funksiyalarda paralelliyin aradan qaldırılması;<br>3. Filialda vahid kargüzarlıq sisteminin qurulması. |

| 6. İnfrastruktur | |
|---|---|
| **Güclü tərəflər** | 1. Lazımi avadanlıqlara malik inzibati və tədris infrastrukturu;<br>2. Maddi-texniki bazanın tələbələr, müəllimlər və inzibati heyət üçün əlçatan olması;<br>3. Elektron kitabxananın mövcudluğu;<br>4. Filialın region üçün infrastruktur baxımından əlverişli məkanda yerləşməsi. |
| **Zəif tərəflər** | 1. Filialın binasının yeni olmasına baxmayaraq, texniki xidmətin zəif təşkil olunması;<br>2. Kitabxanalarda fərdi məşğələlər və qrup müzakirələrinin aparılması üçün lazımi sayda kabinetlərin və oxu zalının olmaması;<br>3. Tədris binasının sağlamlıq imkanları məhdud şəxslərə uyğunlaşdırılmaması və inkluziv tədrisin aparılması üçün uyğun şəraitin olmaması;<br>4. Distant (məsafədən) təhsil auditoriyalarının olmaması;<br>5. Wi-fi xidmətinin tələbələr üçün əlçatan olmaması;<br>6. Mövcud yeməkxanada sanitar-gigiyenik normalara qismən riayət edilməsi, xidmətin qənaətbəxş olmaması və ümumi sayının tələbə sayına nisbətdə kiçik olması;<br>7. Tibbi xidmət otağının zirzəmidə yerləşməsi, havalandırmasının zəif olması, telefon xəttinin olmaması, pasiyentlərin ayrı yerləşdirilməsi üçün izolyasiyaedici otağın olmaması;<br>8. İdman zalının fəaliyyət göstərməməsi;<br>9. Sanitar qovşaqlarda sanitar-gigiyenik normalara tam riayət olunmaması;<br>10. Yataqxanada yaşayış şəraitinin təmin olunmaması. |
| **İmkanlar** | 1. Maddi-texniki, informasiya və elektron kitabxana resurslarının geniş çeşid və seçiminin olması;<br>2. Distant təhsil vasitəsilə filialın tədris infrastrukturundan istifadənin azaldılması ilə xərclərə qənaət imkanı. |
| **Təhdidlər** | 1. Ali təhsildə texnologiyanın və tədris üsullarının dəyişməsi səbəbindən ATM-lərin infrastrukturu və avadanlıqların onların tələblərinə mütəmadi uyğunlaşdırılması zərurəti. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Filialda fərdi məşğələlər və qrup müzakirələrinin aparılması üçün kabinetlərin təsis edilməsi;<br>2. Wi-fi xidmətinin təkmilləşdirilməsi;<br>3. Kitabxana infrastrukturunun və qiraət zalının 6.1.1-ci indikatorda qeyd edilən standartlara uyğunlaşdırılması;<br>4. Mövcud yataqxana binasının əsaslı təmiri;<br>5. UNEC-də olduğu kimi distant tədris infrastrukturunun yaradılması;<br>6. İdman zalının fəaliyyətinin təmin edilməsi;<br>7. Yeməkxanada sanitar-gigiyenik şəraitin təmin edilməsi, ərazisinin və xidmət çeşidinin genişləndirilməsi;<br>8. Sanitar qovşaqların təmir edilməsi;<br>9. Tibbi xidmət otağında havalandırmanın yaxşılaşdırılması, telefon şəbəkəsinin təmin edilməsi, izolyasiyaedici otağın təşkili;<br>10. Tədris binasında sağlamlıq imkanları məhdud şəxslər üçün müvafiq şərait yaradılması. |

| **7. Beynəlmiləlləşmə** | |
|---|---|
| **Güclü tərəflər** | 1. UNEC-in tərəfdaş olduğu ali təhsil müəssisələri və beynəlxalq proqramlardan faydalanmaq imkanları. |
| **Zəif tərəflər** | 1. Filialın beynəlmiləlləşmə sahəsində siyasətinin olmaması;<br>2. Filialda əcnəbi tələbələrin olmaması;<br>3. Müəllim və tələbələrin beynəlxalq mübadilə proqramlarında iştirak etməməsi;<br>4. Yaxın qonşu ölkələrin təhsil müəssisələri ilə beynəlxalq əməkdaşlığın qurulmaması. |
| **İmkanlar** | 1. Ölkədə ali təhsil müəssisələrinin tanınmasında beynəlmiləlləşmə fəaliyyətinin rolunun artması;<br>2. Erasmus+ və digər beynəlxalq proqramlar çərçivəsində filialın institusional potensialının gücləndirilməsi və professor-müəllim heyəti və tələbələrin mübadiləsi imkanı;<br>3. Qonşu ölkələrdən (Rusiya Federasiyası, Gürcüstan) əcnəbi tələbə cəlb edilməsi imkanı. |
| **Təhdidlər** | 1. Beynəlxalq layihə və proqramlarda zəif iştirak edən region universitetlərində beynəlxalq təcrübə haqqında məlumatsızlıq;<br>2. Beynəlxalq mübadilə imkanlarının olmadığı ATM-lərdə müəllim və tələbələrin inkişafının məhdudlaşması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Filialın beynəlmiləlləşmə siyasətinin hazırlanması, qəbulu və icrasının təmin edilməsi;<br>2. Beynəlmiləlləşmə sahəsində müvafiq ölçülə bilən hədəflərin müəyyən olunması;<br>3. Filialda beynəlmiləlləşmə sahəsində müvafiq struktur bölməsinin yaradılması və onun işçi heyətinin formalaşdırılması;<br>4. Filialda beynəlmiləlləşmə fəaliyyəti üçün lazımi maliyyə resursu və infrastrukturun təmin olunması;<br>5. Rusiya Federasiyası və Gürcüstandan tələbə cəlbi istiqamətində marketinq planının hazırlanması;<br>6. UNEC-in tərəfdaş olduğu Erasmus+ və digər proqramlarda iştirak üçün UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamenti ilə əlaqələrin gücləndirilməsi. |

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri**

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 3; Keyfiyyət təminatı istiqaməti üzrə 4; Təlim və tədris istiqaməti üzrə 10; Elmi tədqiqat istiqaməti üzrə 10; İdarəetmə istiqaməti üzrə 3; İnfrastruktur istiqaməti üzrə 10 və Beynəlmiləlləşmə istiqaməti üzrə 6 tövsiyə olmaqla, ümumilikdə 46 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıdakı tədbirlərin UNEC Zaqatala filialı tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 3 (3) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunsun (TKTA ilə razılaşdırılmaqla);

**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi**

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, UNEC Zaqatala filialının fəaliyyəti Komissiya tərəfindən Qaydalara uyğun olaraq qiymətləndirilməklə həm istiqamətlər həm də meyarlar üzrə “Uyğun deyil” hesab edilmişdir;

- Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Komissiya qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 (iki) il üçün uzadılması və UNEC Zaqatala filialının 1 (bir) ildən sonra təkrar akkreditasiya olunması, həmçinin, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək təhsil müəssisəsində kadr hazırlığı aparılan təhsil proqramlarına təhsilalanların qəbulunun dayandırılmasını məqsədəuyğun hesab edir.